*Z.HƏBİBƏ*



# *DİLARƏ BAĞA GEDİR*



*Azərbaycan*
*Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı*
*Bakı-1959*



### A L M A

Kəmalə qıvrım saçlı, qarayanız balaca bir ərəb qızıdır. Onun vətəni Qahirə şəhəridir. Amma o bir dəfə də olsun öz vətənini görməmişdi. Kəmalənin ata-anası ali təhsil almaq üçün bir neçə il bundan əvvəl Qahirə şəhərindən Moskvaya gəlmişdilər. Kəmalə də burada, Moskvada dünyaya gəlmişdi. O, ayaq tutduğu gündən tələbələrin istəklisi olmuşdu. Bir də görürsən tələbələrdən biri soruşurdu:

-Kəmalə, heyvanxanaya gedirsənmi? Gedək gör şir ilə it, keçi, dovşan, xoruz, tülkü, qurd, pələng bir dam altında necə yaşayırlar!

-Gedək!.. Gedək!.. - deyə balaca Kəmalə də sevinclə öz razılığını bildirərdi, beləliklə tələbələr onu çiyinlərində, Moskvanı qarış-qarış gəzdirmişdilər: muzeylərdə, parklarda, kukla teatrında, sirkdə olmuşdu. Metroları əldən-ayaqdan salmışdı. Planetaridə oturub ayın, günəşin necə çıxdığına, axşamın necə düşdüyünə, səhərin necə açıldığına heyran-heyran tamaşa etmişdi, hətta əsnəyərək yuxuya da getmişdi. Axı tələbələr onu səhər banında yuxudan oyatmışdılar.

Kəmalə böyük Kreml sarayının çilçıraqlı salonunda yeni il səhərciyində iştirak etmişdi.O,burada anasından öyrəndiyi bir ərəb rəqsini də ifa etmişdi. Dünyanın hər yerindən şəhərciyə qonaq çağırılmış uşaqlarla tanış olmuşdu...

Nə isə... balaca ərəb qızı Kəmalə çox yerlər, çox şeylər görmüşdü... İndi o, ata-anası ilə bərabər Vətəninə, Qahirə şəhərinə gedirdi. O, Ərəbistana şirin xatirələr və nazik kağızlar arasında qoruduğu bir səbət alma aparırdı.

Bir səbət alma... Təəccüblüdür... Bəyəm şirin xurmaları, dadlı bananları ilə şöhrət qazanmış Ərəbistan bağlarında alma yoxdumu?

Yox... yox... Balaca Kəmalənin ürək döyüntüləri ilə apardığı bir səbət alma onun üçün hər şeydən qiymətli idi və Kəmalə səbəti göz bəbəyi kimi qoruyurdu. Çünki bu almalardan dünyanın heç yerində yox idi.

Əhvalat belə olmuşdu: Bir dəfə Kəmalə ata-anası ilə kiçik bir səyahətə çıxdı. Onlar avtobusa minib yola düşdülər.

Avtobus uzun yollar keçib, ikimərtəbəli bir evin qabağında durdu. Bura Vladimir İliç Leninin ev muzeyi idi. Maşından hamıdan əvvəl Kəmalə düşdü. Taxta qapını açıb, həyətə, oradan da dəhlizə keçdi. Dəhlizdə ayaqqabılarını çıxartdı. Əlində nazik uzun çubuq tutmuş sarışın saçlı bir qadın gülümsəyərək:

-Salam! - deyib qızın qara qıvrım saçlarını sığalladı.

Böyük bir dəstə Kəmalənin, Kəmalə də qadının dalınca gedirdi. Onlar yataq otağını, dərs otağını, qonaq otağını gəzdilər.Cərgə-cərgə düzülmüş kitablara baxdılar. İzahat verən qadın evdəki hər bir şey haqqında elə ürəkdən, elə məhəbbətlə danışırdı ki, Kəmalə elə bil «Min bir gecə» nağıllarını dinləyirdi. Onun ağzı açıla qalmışdı. Qapqara iri gözləri izahatçıya sancılmışdı. Kəmaləyə elə gəlirdi ki, bax bu dəqiqə sarışın qıvrım saçlı Volodya oxuduğu kitabı bir kənara qoyacaq, üzünü ovucları içərisinə alıb Kəmalənin kefini soruşacaqdı.

Kəmaləyə birdən elə gəldi ki, çox sevdiyi Volodyanın səsini eşitdi. Kəmalə səhv etməmişdi. O həqiqətən bu səsi eşitmişdi. Amma lentə yazılmış bu səs, balaca Volodyanın deyil, düıyanın bütün xalqlarını birliyə, dostluğa, bərabərliyə çağıran Lenin babanın səsi idi. Bu səs, dünya zəhmətkeşlərini azadlığa çağıran böyük Volodyanın səsi idi.

Kəmalə görüklərindən eşitdiklərindən bərk həyəcalanmışdı. Volodya kimi oxumaq,Lenin baba kimi olmaq arzusu ilə sinəsi od tutub yanırdı. Dodaqları qurumuş,elə bil bərk susamışdı. Nəhayət ev muzeyinə gələnlər evin qabağındakı

meyvə bağına çıxdılar. Meyvə ağaclarından birinin altında durub şəkillərini çəkdirmək istədilər.

Kəmalə alma ağaclarına maraqla baxıb fikirləşdi ki:

"Görəsən bu ağacları da Volodya əkib, görəsən bu almalardan Volodya yeyib, görəsən o, öz sevimli bacıları ilə bu ağacların altında qaçdı-tutdu, gizlənpaç oynayıb? Görəsən bu almalardan birini qopardıb dadına baxmaq olarmı?"

Elə bu zaman izahatçı qadın alma ağacından bir neçə alma qopardıb Kəmaləyə uzatdı:

-Al Kəmalə, dadına bax, - dedi.

Kəmalə təəccüblə qadına baxdı. Qulaqlarına inanmadı. "Doğrudanmı bu almaları mənə verir?! Görəsən hardan bildi ki, mən alma yemək istəyirəm".

Yer-yerdən səslər eşidildi:

-Al Kəmalə, al ye!

Kəmalənin yanaqları, qulaqları od tutub yanırdı. Tələbələrdən biri:

-Ay balaca susamısan ki, al ye, susuzluğun yatsın da, - dedi və almaları qadından alıb Kəmalənin ətəyinə tökdü.

Kəmalə gülümsündü. İzahatçı qadına razılığını bildirdi və fikirləşdi ki, bu evdəki işçilər də Lenin baba kimi qayğıkeş və mərhəmətlidirlər.

Amma Kəmalə almalardan heç birini də yemədi. O, bu almaları ağıllı Volodyanın, böyük Lenin babanın bağından Qahirəyə, ərəb balalarına hədiyyə aparacaqdı.



**NƏNƏMİN AD GÜNÜ**

Gülnarın anası mətbəxdə qoğal bişirirdi.Gülnar da anasının yanında durmuşdu. Ana bişmiş qoğalları qaz pilətəsinin içindən çıxartdı.Gülnar da isti qoğalları soyumaq üçün stolun üstünə düzdü. Sonra ana yastıladığı xəmirləri tavaya düzüb, qaz pilətəsinin içinə qoydu. Qoğallar bişənə qədər ana dinib-danışmadan öz işi ilə məşğul oldu. Gülnar xeyli dinməz durub darıxdı və:

-Anacan, o qoğalları nə üçün bişirirsən? - deyə soruşdu. O, yaxşı bilirdi ki, qoğalı yemək üçün bişirirlər. Amma elə belə, anasını dilləndirmək istəyirdi.

Ana təəccüblə Gülnara baxdı:

-Bu gün nənənin ad günüdür də.

Ad günü sözünü eşitcək,Gülnarı gülmək tutdu.

-Eh... Eh... heç nənənin də ad günü olar?

-Nə üçün olmur, bu gün martın səkkizidir,- deyə ana səhər nənə haqqında qəzetdə oxuduqlarını Gülnara danışdı. Bir az sonra onlar nənənin ad gününə getmək üçün hazırlaşdılar.Gülnar təzə paltarını geyindi. Bu paltarın parçasını ona nənəsi bağışlamışdı.

-Fabrikdə özüm toxumuşam, qoy nənəndən sənə yadigar qalsın, - demişdi. Gülnar da nənəsinin hədiyyəsini əzizləyib, onu bayramdan-bayrama, qonaqlıqdan-qonaqlığa geyinərdi.

Bir azdan Gülnar anası ilə bərabər maşına minib, nənəsigilə yola düşdülər.

Gülnarın nənəsi fəhlə qəsəbələrinin birində təzə binada yaşayırdı. Maşın həmin binanın qabağında duranda, Gülnar anasından əvvəl maşından düşdü. Pilləlləri yüyürə-yüyürə qalxıb yumruqlarını dalbadal qapıya vurdu.

-Bu Gülnardır, - fikirləşən nənə, qapını açdı. Gülnarı qucağına aldı və qonaqların yanına gətirdi.

Gülnar çox ədəbli qız idi. O, əvvəl qonaqlara salam verdi. Sonra əlindəki uzunsov qutunu nənəsinə uzatdı:

-Nənəcan, ad günün mübarəkdir, - dedi.

Nənə qutunu alıb stolun üstünə qoydu, Gülnarın alnından öpdü:

-Sağ ol qızım,—dedi və qutunu açmağa tələsdi.

Qonaqların gözü qutuda idi. Onlar Gülnarın nənəsinə gətirdiyi hədiyyəni görmək istəyirdilər. Nənə qutudan yatan-duran gəlinciyi çıxardanda, qonaqlar gülməkdən özlərini güclə saxladılar.Təkcə nənə nəvəsinin ilk hədiyyəsini sinəsinə sıxdı.Onun gözləri sevincdən yaşardı.Nənə gəlinciyi kamodun üstünə qoydu ki, həmişə gözün qabağında olsun. Birdən qonaqlardan biri soruşdu:

-Gülnar, bəs mənə nə hədiyyə gətirmisən?

Gülnar gözlərini gipgirdə açdı. Təəccüblə qonağa baxdı.

-Bəyəm bu gün sənin də ad günündür?

-Bəs necə, bu gün bütün qadınların bayramıdır.

-Ehe... qadınların bayramıdır, heç vaxt, təkcə nənəmin ad günüdür. Çünki nənəmə bu gün ad veriblər, - deyə Gülnar məhəbbətlə nənəsinə baxdı.

-Bəyəm nənənin adı yox idi ki? Bəs Tubu nənə kimin adıdır?

Gülnar dərindən ah çəkdi. Başını tərpədib dedi:

-Eh... Onu da bilmir! Axı nənəm fabrikdə yaxşı işlədiyi üçün ona iş qəhrəmanı adı veriblər. Bildin?

Qonaq qızın cavabından razı qalıb:

-hə... belə de,—dedi və üzünü Tubu nənəyə çevirib:

-Ad günün mübarəkdir.

Qonaqlar dağılışandan sonra Gülnar nənəsinin qucağına girib şirin və rahat yuxuya getdi.

Ertəsi gün, Gülnar evlərinə gedəndə nənəsi ilə qucaqlaşıb öpüşdü.

Birdən gözü kamodun üstündə əyləşdirilmiş gəlinciyə sataşdı. O, gözaltı bir nənəsinə, bir də gəlinciyə baxdı. Dərindən içini çəkdi:

-Eh... qəhrəman Tubu nənəmi də çox istəyirəm,gəlinciyimi də, - deyə öz-özünə pıçıldadı və otaqdan çıxdı. Elə bu vaxt nənəsinin səsi gəldi.

- Gülnar qızım, sabah çoxlu-çoxlu şirin qoğal bişirin.Yatan-duran gəlinciklə sizə qonaq gələcəyik. Eşitdin, sonra içəri girib gəlinciyi səliqə ilə yenidən kardon qutuya qoydu.



## YATAN-DURAN GƏLİNCİK VƏ REYHAN

Bir dəfə ana işdən gələndə Reyhan üçün yaraşıqlı bir gəlincik aldı. Gəlinciyi Reyhanın qucağına verdi.

-Bu adi gəlinciklərdən deyildir, - dedi. Reyhan onu balaca xalının üstünə əyləşdirdi. Özü də dizinə dirsəkləndi. Üzünü ovucları içərisinə alıb maraqla gəlinciyə baxdı.

-Sən nə qəşəngsən, - deyə özlüyündə pıçıldadı. Sonra anasına dedi ki:

-Anacan, mən yatanda da onu öz çarpayımda yatırdacağam, yaxşı?!

Ana etiraz etdi:

-Yox, Reyhan, hərənin öz çarpayısı olmalıdır. Bir yerdə yatmaq yaxşı deyil, - dedi.

Reyhan yenə üzünü ovcuna alıb xeyli gəlincəyə baxdı, sonra fikirləşdi ki, bəlkə o, acdır.

-Pendir-çörək yeyərsənmi?—deyə soruşdu.

Gəlincik cavab vermədi.

-Bəlkə susamısan, hə?!

O, yenə cavab vermədi.

-Deyəsən məndən küsmüsən, küsmək yaxşı şey deyil, gəl oynayaq.

Gəlincik yenə cavab vermədi. Reyhan darıxdı. Dodaqlarını büzdü. Gözləri yaşla doldu və anasına şikayətlənməyə başladı:

-Anacan, bəs nə üçün gəlincik mənimlə danışmır. Çay verirəm içmir, çörək verirəm yemir, elə oturub baxır?!

Ana tez saata baxdı:

-Bıy onun yatan vaxtıdır, qızım, ona görə də yemək istəmir. Reyhan gəlinciyi qucağına aldı, onu balaca çarpayısında uzandırdı.

-Ay aman!—deyə çığırdı. Gəlinciyim gözlərini yumub yuxuya getdi. Sevincək halda özü də paltarlarını soyundu, yatağına uzandı. Gəlinciyinə baxdı... Özünün də gözləri süzülüb yumuldu. O, gəlinciklə bərabər şirin yuxuya getdi.



## MƏNİ BU EVƏ KİM GƏTİRDİ?

Ana işləmək, yazı yazmaq istəyirdi. Ədilə isə anasının qucağına girib ona sığınmaq, onunla xeyli söhbət etməyi arzulayırdı. O, taxtın üstündə əyləşib, yumruqları ilə gözlərini ovurdu ki, yuxusu qaçsın. Ana isə çarpayını hazırlayırdı. O, Ədilənin yorğanını qaldırdı. Balaca qu tüklü balışını bir neçə yerdən döyəclədi ki, tüklər yumşalsın. Sonra Ədilənin ayaqqabısını, paltarını soyunmaqda ona kömək etdi və qızı qucağına salıb çarpayıya uzandırdı. Ədilə elə bil bunu gözləyirdi. Əl-ayağını uzatdı, yarı yumulu gözlərini qaradı. Anası yorğanı onun çiyinlərinə qədər örtdü.

-Yuxun şirin olsun balaca qızım, - deyə əyilib onun alnından öpdü. Sonra o biri otağa keçib yazı stolunun arxasında əyləşdi. Dünən gecədən yarımçıq qalmış yazılarını gözdən keçirdi. Qələmi mürəkkəblə doldurub yazmağa başladı. Yazdı... yazdı... Saatların necə gəlib keçdiyini belə hiss etmədi...

Bütün günü atılıb-düşmüş, yorulmuş və ertədən yuxusu gələn Ədilə isə hələ də yuxuya getməmişdi. O, anasının nə vaxt çarpayıda uzanacağını gözləyirdi.O, o

tərəf-bu tərəfə çevrildi. Qalxıb yatağında əyləşdi. Boylanıb qapıdan anasına baxdı. Ona elə gəldi ki, indi bu dəqiqə anası həmişəkindən də əziz və mehribandır. Onun üzündə,gözlərində elə bil böyük məhəbbət vardır. Ədilə bu məhəbbətin özünə aid olduğunu güman etdi və pıçıltı ilə:

-Ana... anacan... - çağırdı.

Ana heyrətlə Ədiləyə baxdı.

-Sən hələ yuxulamamısan. Saata göz yetirdi və başını buladı.

Ədilə anasının hərəkətindən qımışaraq:

-Axı mən səni istəyirəm, - dedi və çarpayıdan sürüşüb yerə düşdü. Yalın ayaqlarını döşəmə üzərində şappıldada-şappıldada anasının yanına qaçdı. Maraqla anasının əlindəki avtomat qələmə, kağız üzərində cızılmış hərflərə baxdı. Yavaş-yavaş qıçını qaldırdı, anasının qucağına qalxıb yerini rahatladı. Kürəyini onun sinəsinə söykədi. Saçlarını, totuq yanaqlarını onun üzünə, dodaqlarına, boynuna, sürtdü və nazlanaraq:

-Anacan... ana... - pıçıldadı.

Ana məzəmmətlə qızına baxdı. Ədilə anasının baxışlarından başa düşdü ki, anası ciddi məşğuldur, o isə anasına mane olmuşdur. Günahkardır. Amma özünü də günahkar hesab edə bilmirdi. O, fikirləşirdi ki, gedib çarpayıda uzansın. Elə bu zaman anası gülümsündü. Qələmi kağız üzərinə qoydu. Qızının saçlarını tumarladı. Ədilə anasına daha bərk sığındı. Ona elə gəldi ki, nə yumşaq yorğan-döşək, nə yaylı çarpayı heç biri anasının qucağı kimi rahat və isti ola bilməzdi. Bir qədər keçdi. Ana-bala bir-birlərini xeyli əzizlədilər və Ədilə nə vaxt yatağından durub anasının yanına gəldiyini unutdu. Təəccüblə anasına baxdı. Dodaqlarını büzdü, yenə yumruqları ilə yuxulu gözlərini ovdu və:

-Anacan, axı mən o biri otaqda idim, bəs məni kim bura gətirdi?—deyə soruşdu.

-Ananı gülmək tutdu, qızının saçlarından öpdü və:

-Səni bu evə ananın məhəbbəti çəkib gətirdi., qızım, - dedi.



## QAYĞIKEŞ PİŞİKLƏR

Anarın ata-anası hər səhər işə bərabər gedərdi. Evdə nənə, Anar və bir də üç pişik balası qalardı. Bunlar da bekar olmazdılar. Nənə ev işləri ilə məşğul olardı. Anar isə pişiklərinə qulluq edərdi. Özü də pişiklərə qulluq etmək ona hər şeydən çox ləzzət verərdi.

Anar, nənəsi demişkən, çox əli açıq uşaq idi. O, bir tikəsini tək yeməyib pişiklərlə tən bölərdi.

Pişiklər də Anara o qədər öyrənmişdilər ki, onu heç gözdən qoymazdılar. Bütün günü Anarın dalınca gəzər, onu otaqdan dəhlizə, dəhlizdən mətbəxə, mətbəxdən aynabəndə ötürməkdən yorulmazdılar. Ona qulluq göstərməyə çalışardılar.

Əgər Anar süd içəndə südü yerə dağıtsa idi, pişiklərin üçü də tez südü yerdən yalayardılar ki, nənə görüb Anarı danlamasın.

Əgər Anar ayaqqabılarını təmizləmək üçün şit yağla onları yağlasa idi, pişiklər - heç şit yağla da ayaqqabı silərlər?! - deyə fikirləşib miyoldayar və tez ayaqqabıların yağını yalayardılar ki, nənə görüb acıqlanmasın.

Nə isə, balaca dostların arasında nənənin başa düşə bilmədiyi böyük bir məhəbbət var idi.

Amma nənə həmişə Anarı məzəmmətləyərdi. - Ay uşaq bəsdir bu qədər pişiklərlə hərləndin. Axı onların xeyri nədir?! - Odu, siçanlar düyüyə, əriştəyə daraşıblar, sənin pişiklərinsə yağ yalamaqdan, süd içməkdən başları ayılmır.

Bir dəfə nənə pişikləri aynabəndə salıb, qarını bağladı. Anarı isə mətbəxdə oturdub:

-Hə indi rahat çörək yeyərsən,—dedi.

Anar pişiklərindən ayrı başını aşağı salıb fikirli-fikirli çay içirdi. Birdən balaca bir şeyin divarlara çırpına-çırpına o tərəf-bu tərəfə qaçdığını gördü. O, civildəyərək elə bil nəyisə axtarır, kimi isə haraylayırdı.

Anar yerindən belə tərpənməyib maraqla siçan balasına baxırdı.

Boz, hamar dərisi olan bu balaca heyvanın nazik biz kimi quyruğu, balaca qulaqları, muncuq kimi parıldayan xırda qara gözləri və ətcə ayaqları vardı. Anar siçandan həm xoşu gəldi, həm də ona acıdı.

-Yəqin azıb, evlərini, anasını axtarır, - deyə fikirləşdi. Əlindəki çörəyi ovub yerə səpdi: - Bəlkə də acdır.

Birdən siçan nənənin un, düyü, əriştə saxladığı yeşiyin yanındakı deşiyə girib yox oldu.

Anar yerindən dik qalxdı:

Aha... İndi bildim ki, harada yaşayırsan.

O gündən Anar hər gün yuvanın ağzına çörək, yağ, süd, ət qoyardı. Bir azdan görərdi ki, siçan balası başını yuvadan çıxartdı. Qorxa-qorxa o tərəf-buy tərəfə baxdı və yuvanın ağzındakı yeməkləri yuvaya çəkdi.Bir dəfə Anar yenə siçan balasına çörək qırıntısı səpmək istədi. Gördü ki, pişiklərin üçü də yuvanın ağzını kəsdirib diqqətlə içəri baxırlar.

-Hə... mənim qəşəng pişiklərim, burda nə qayırırsınız, yoxsa təzə dostumla tanış olmaq istəyirsiniz. Gözləyək indi çıxar, ona çörək verərik.

Amma o gün yuvadan çıxan olmadı. Ertəsi gün Anar nigaran qalıb yuvanın yanına gəldi. Amma nə gördü? Qara tüklü pişik nəyi isə pəncələri ilə bərk-bərk döyəcləyir, gah o tərəfə-gah bu tərəfə çırpırdı. Yazıq siçan balası heç cür canını

pişiyin pəncəsindən qurtara bilmirdi. O, biri pişiklər də qara tüklü pişiyin dalınca qaçıb acıqlı-acıqlı miyoldayırdılar.

Anarın pişiklərə bərk acığı tutdu.

-Ay pişiklər, bu siçan balasını niyə incidirsiniz. Buraxın onu, tez olun buraxın! - deyə çığırdı. Amma pişiklər ovu əldən verməyib həyətin ortasına qaçdılar.

Anarın səsinə nənə həyətə çıxdı və şaqqıltı ilə güldü.

-Mən belə ürəyi nazik uşaq görməmişəm. Ay bala, bu murdar siçandan ötrü niyə ağlayıb, özünü həlak eləyirsən. Bilmirsən ki, siçanlar xəstəlik yayan zərərli heyvandırlar. Pişiklər lap yaxşı iş görüblər, - dedi.

O gündən nənənin, Anarın pişiklərlə dostluğuna acığı tutmadı.



**QAPIYA GƏLƏNİ QOVMAZLAR**

Bərk soyuqlar düşmüşdü. Güclü qar yağmışdı. Damlar, daşlar, ağaclar qarla örtülmüşdü. Belə soyuq günlərin birində azmış bir küçük, titrəyə-titrəyə küçələri gəzirdi. O, isinmək üçün bir yer axtarırdı. Amma nə soyuq daşlar, nə də qarla örtülmüş ağaclar onun donmuş bədənini qızdırmırdı.

Axşam oldu. Küçük bir həyətə gəlib çıxdı. Dam pilləkənin altında kiçik bir oyuq gördü, İçəri girib burada gecələmək istəyirdi ki, bərk hay-küy düşdü:

-Quq... qu...lu...qu... Küçüyün toyuq hinində nə işi var?! - deyə bir xoruz küçüyün təpəsinə qonub, onu dimdikləyə-dimdikləyə bayıra atdı.

Küçük quyruğunu qıçlarına sıxıb, yenə həyəti dolaşdı. Eyvanın altında alçaq bir qapı gördü. Qapının arasından güclə içəri girdi. İçəridən gələn xoş isti onun bədəninə yayıldı.

-Nə yaxşı oldu!.. Elə burada istilənib gecələrəm,-deyə fikirləşdi. Sümsünə-sümsünə rahatlanmağa yer axtardı. Birdən elə bil kim isə ona tərəf atıldı.

-Mə... ə... ə... kimdir mənim ayağıma dolaşan?!

Cürbəcür səslər bir-birinə qarışdı. Küçük bir təhər özünü bayıra atdı. Axı, o, nə biləydi ki, bura tövlədir?

Küçük bir pəncərənin qabağında durdu. Burnunu qırışdırıb fınxırdı. İçəridən xörək iyi gəlirdi.

Küçük xırda pəncələrini divara söykəyib, dili ilə dodaqlarını yaladı.

Şüşənin o biri tərəfində balaca bir pişiyin əl-üzünü yuduğunu gördü.

Küçük:

-Nə xoşbəxtdir, yeri isti, qarnı da tox,-deyə fikirləşdi. Pişiyi çağırmaq üçün bir ağız hürdü.

-Hav...

Amma onun səsini eşidən pişik balasının qorxudan tükləri biz-biz oldu. O, belini qabartdı, bığlarını oynatdı.

Küçük başa düşdü ki, pişik onu qovmaq üçün belə eləyir. Əlacı kəsildi. Uzaqlaşmaq istəyəndə birdən pənçərə açıldı, balaca bir oğlan onu yerdən qaldırdı:

-Ay aman, necə donmusan?.. Yəqin, acsan da... Eybi yoxdur, indi mən səni yedirib-içirdərəm, qızışarsan,-dedi. Sonra üzünü pişiyə tutub acıqlandı:

-Niyə tüklərini qabartmısan, bilmirsən ki, qapıya gələni qovmazlar?!



## XORUZUN NEÇƏ RƏNGİ  VAR?

Naidə yayda kəndə, nənəsinin yanına getmişdi O, kənddə günlərini çox şən və maraqlı keçirirdi. Gah meşəyə moruq yığmağa gedir, gah da çayda çimirdi. Evdə qalanda isə rəsm çəkməklə məşğul olurdu.

Naidənin çəkdiyi rəsmlərin çoxu heyvan və quş şəkilləri idi. O, bu heyvanlarda və quşlarda gördüyü rəngləri bir-birindən ayırmağı bacarırdı.

Amma xoruz...

Asanlıqla çəkdiyi xoruzun şəklini rəngləməyə başlayanda Naidə çaşıb qalırdı. O görürdü ki,xoruzun pipiyi al-qırmızı, dimdiyi sarı, qıçları qəhvəyi, muncuq kimi xırda gözləri isə qaradır. Atlas kimi parıldayan qanadları, gün kimi işıq verən quyruğu vardır.

Naidə, gördüklərini olduğu kim də rəngləyirdi. Bütün rəngli karandaşları işə salırdı: qara, qəhvəyi, abı, yaşıl, qırmızı, narıncı, sarı... Amma nə qədər çalışırdısa onun rənglədiyi xoruz şəkli canlı xoruzun yanında çox solğun görünürdü...Naidə bu sirrin səbəbini öyrənmək üçün xeyli fikirləşdi. Axırda, o, başa düşdü ki,

xoruzun qanadlarındakı rəngin sayı onun yeddi rəngli karandaşının sayından daha çoxdur. Amma bu rənglər nə qədərdir? Naidə bilmirdi...

Uşaqlar, bəlkə siz, xoruzun qanadlarındakı rənglərin sayını bilməkdə Naidəyə kömək edəsiniz?



## YAŞAR NƏ CÜR XARRAT 0LDU

Yaşargilin küçəsində təzə ev tikilmişdi. Bu evdə xarratlar işləyirdi. Onlar uzun taxmaları kəsir, yonur, hamarlayır və onlardan qapı, pəncərə çərçivələri qayırırdılar.

Yaşar hər gün bağçadan gələndə bu evin qabağından keçərdi. O, xeyli ayaq saxlayıb xarratlara tamaşa edərdi.

Bir gün Yaşar yenə bağçadan qayıdanda atasına dedi:

-Kaş mən də xarrat ola idim.

Atası diqqətlə Yaşara baxıb soruşdu:

-Sən, doğrudan da, xarrat olmaq istəyirsən?

-Lap çox istəyirəm.

Atası yenə də soruşdu:

-Bacararsan?

-Bacararam, bəs necə?..-deyə Yaşar tələsik cavab verdi.

Ama fikrə getdi:

Yaxşı, baxarıq,-dedi.

Onlar oyuncaq mağazasının yanından keçəndə ata Yaşarın əlindən tutub mağazaya girdi. Onlar cürbəcür oyuncaqlar düzülmüş ləmələrə göz gəzdirdilər. Ata oyuncaqların içərisindən dördkünclü bir qutu seçib, satıcıdan istədi.

Cabbar əmi qutunu ləmədən gətirdi və Yaşara verdi.

Ama qutunun içindəkilərini bir-bir Yaşara göstərməyə başladı.

-Bax bu mişardır, taxma kəsmək üçündür. Bu isə rəndədir. Taxtanı yonub hamarlamaq üçündür. Bunu da ki, tanıyırsan, çəkicdir. Yerdə qalanların hamısı xarratlıqda işlənən karastılardır,-dedi.

Yaşar qumudakı karastılara maraqla baxdı. O, o qədər sevindi ki, hətta atasına- çox sağ ol - deməyi də yadından çıxartdı.

Amma elə ki, karastılar evə gəldi. O gündən Mehriban nənə dönüb deyingən nənə oldu.

-Ay bala bəsdir!.. Bəsdir bu qədər taraq-turuq saldın, baş-qulağım getdi. Bu taxtaları niyə doğrayıb, əl-ayaq altına tökmüsən, yığışdırmaqdan yoruldum. Axı sən hara, xarratlıq hara.

Yaşar isə bütün günü taxta mişarlayır, yonur,mıxlayır, tər tökürdü. Amma araya bir şey çıxmırdı ki, çıxmırdı.

Bir dəfə nənə taxçada nə isə axtarırdı. Ayağını kətilin üstə qoydu ki, yuxarı qalxsın. Birdən kətil silkələndi. Nənə az qala yıxılacaqdı. 0, əlini divara dayadı. Tez yerə düşdü. Kətilin o tərəf- bu tərəfinə baxdı.

-Nə yaxşı yerə dəymədim. Qol-qanadım sınacaqdı,-deyə dodaqaltı mızıldadı və Yaşarı məzəmmətləməyə başladı:

-Ay bala bir ovuc mıxı daş divara, taxta-paraya vurub xarab eləmisən... Nə olardı, bir-iki mıx da kətilin qıçına vurub bərkidə idin.

Elə Yaşara da bu lazım idi. Təki ona belə şey deyəydilər.

Yaşar karastılarını mətbəxə daşıdı. Kətili tərsinə çevirdi. Çox əlləşdi. Çox hay-küy saldı. Axır bir təhər kətilin hər qıçına bir-iki mıx vurdu. Sonra özündən razı halda əllərini belinə qoydu.

-Nənəcan əyləş. Daha yıxılmazsan,- dedi.

Nənə bir kətilə, bir Yaşara baxdı. Gülümsündü. Amma Yaşara bir söz demədi.

Günün axırında ata-ana işdən gəldi. Hamı xörək yeməyə əyləşdi. Yemək zamanı nənə gözaltı Yaşara baxdı:

-Nəvəm ağıllı-başlı xarrat imiş! - Sonra da əhvalatı danışdı.

Atası sevincək:

Bəs necə... karastıları boş yerə almamışıq ki...-dedi və oğlunun saçlarını tumarladı.

Yaşar yaman sevinirdi. O, balaca da olsa başa düşürdü ki, əsil xarrat olmaq üçün hələ çox şey öyrənməlidir. Amma yenə sevinirdi... Çünki bu evdə o da xeyirli bir iş görmüşdü!



## NÖVBƏTÇİ ƏZİZ

Bir gün nahar zamanı Sünbül müəllimə dedi:

-Əziz, sabah növbətçi sənsən!

Növbətçilik Əzizin çoxdankı arzusu idi. O, həmişə stolların üstünə boşqab düzən növbətçi uşaqlara həvəslə baxardı. Fikirləşərdi ki: “Görəsən məni də növbətçi seçəcəklər?!” Amma uşaqlar yer- yerdən çığırışardılar:

-O ki, səliqəsizdir! Tənbəlin biridir. Heç bağçaya vaxtında gəlir ki, növbətçilik də eləsin.

Sünbül müəllimə uşaqları yenicə sakit etmişdi ki, saçlarına qırmızı lent bağlamış Elmira birdən sözləri uzada-uzada dedi:

-Eh, səliqəsizliyi bir yana, həm də çox balacadır.

Elmiranın “balacadır” deməsi Əzizin heç xoşuna gəlmədi. Axı nə vaxta qədər ona “balaca” deyəcəkdilər? O, acıqla Elmiraya baxdı: “Buna bax, güya özü məndən çox böyükdür!”

Gecə hava bərk soyudu. Qar yağdı. Səhərə yaxın damlar, küçələr qarla örtüldü. Əzizin anası həmişəkindən tez yuxudan durdu. O, alaqaranlıqda geyinərək:

Yəqin bir saat yalvaracağam. O, heç belə soyuq havada isti yorğan-döşəyi qoyub bağçaya gedər?- deyə oğlu haqqında fikirləşdi. Sonra Əzizi səslədi. Cavab gəlmədi. Əzizin yatdığı çarpayıya baxdı.

- Yoxdur! Görəsən haradadır?

Ana o biri otaqdakı taxtın üstünə baxdı, dəhlizə çıxdı. Əziz heç yerdə yox idi. Mətbəxə yüyürdü. İçəridən elektrik lampasının işığı və qaşıq səsi gəlirdi.

Ana içəri girib, maraqla bir Əzizə, bir də stola tərəf baxdı.

Stolun üstünə dörd boşqab, dörd xörək qaşığı, dörd çəngəl, çörək və duz qabları düzülmüşdü. Ananı gülmək tutdu. O soruşdu:

-Balaca, səhər-səhər bu nə qonaqlıqdır?

-Mənə balaca demə, ana! Mən balaca olsaydım, heç növbətçiliyi mənə tapşırardılar?..

-Hə... Belə de! Demək, sən bu gün baxçada növbətçisən! Bu hazırlıq da ona görədir. Çox gözəl.İndi bildim ki, sən daha balaca deyilsən. Ana bir daha stolu nəzərdən keçirdi: - Buradakı səliqədən görünür ki, bağçada da səliqəli olacaqsan. Amma nahar vaxtı stolun üstün dəsmal qoymağı unutma ha!



## QARPIZ

Uşaqların arasında bərk hay-küy düşdü:

-Urra... sabah bağa köçürük!

-Dəniz kənarına!

-Üzüm bağlarına!

Birdən bu şən və mehriban səslər içərisindən Elmarın narazılığı eşidildi:

-Nə hay-küy salmısınız, bağda nə var? Lalə təəccüblə ona baxdı:

-Bağda... bağda nə olar? Bağda üzüm var, əncir var, dəniz var... - deyə o, barmaqlarını bir-bir qatlayıb, saymağa başladı.

-Nə olub, niyə bir-birinizə qatışmısınız, - deyə tərbiyəçi uşaqlardan soruşdu.

Lalə tez dilləndi:

-Elmar deyir, bağda nə var ki? Mən də sayırdım... Tərbiyəçi müəllimə dedi:

Yaxşı eləyirdin, indi hay-küy salmadan yola hazırlaşmaq lazımdır. Lalə-kitabları, Sənubər - şəkilləri, Sevda - əl işlərini, Elmar—maşınları, qalan uşaqlar da stulları səliqə ilə bir kənara yığın, elə edin ki, yola düşəndə yaddan bir şey çıxmasın.

Uşaqlar işə başladılar. Elmar da oyuncaq yük daşıyan maşınları tərtəmiz silib, yan-yana düzdü.

Ertəsi gün, səhər tezdən ata-analar öz balalarını iri dizellərdə bağa yola saldılar.

Maşın xeyli yol getdi. Dəniz kənarında ağaran üçmərtəbəli bir binanın iri ala qapısından həyətə girdi. Uşaqları, onların köhnə dostu, bağban əmi qarşıladı. O:

-Ay sizi xoş gəlmisiniz,-dedi və əlindəki beli divara söykəyib, uşaqlara maşından düşməyə kömək etdi. Maşından düşən bağban əminin yanında dövrə vurub dururdu.

-Əmican, bu il də bostan salacağıq?—deyə Lalə maraqla soruşdu.

-Bəs necə... Siz lap vaxtında gəlmisiniz. Bir neçə gündən sonra işə başlamaq lazımdır.

Uşaqların hərəsi bir sual verir, bağbandan cavab almağa tələsirdi. Təkcə Elmar bağban əmini birinci dəfə gördüyü üçün utanırdı. O, bir tərəfdə durub söhbətlərə qulaq asırdı. Bağbanın da fikri Elmarda qalmışdı. O, Elmarı söhbətə qarışdırmaq istəyirdi. Buna görə də:

-Elə şoferimiz də özümüzdəndir,—deyib başı ilə Elmarı göstərdi.

Uşaqlar Elmara tərəf baxdılar. Elmar yük maşınına bağlanmış ipin bir ucundan bərk-bərk tutmuş və altdan-altdan uşaqlara baxırdı.

Bağban Elmara yaxınlaşdı. Əlini çiyninə toxundurdu:

-Hə kişi, sən necə, bizə kömək edəcəksənmi? - deyə soruşdu.

Elmar tələsik cavab verdi ki:

-Bəs yox, əlbəttə ki, kömək edəcəyəm, bəs o qədər maşını niyə gətirmişəm.

Bu söhbətdən bir neçə gün keçdi. Uşaqlar eyvanda uzanıb dincəlirdilər. Birdən kimsə:

-Sabah bostan salacağıq ha...—deyə xəbərdarlıq etdi.

-Doğrudan?—deyə Sənubər cır səslə soruşdu. Uşaqlar ağız-ağıza verib pıçıldaşdılar. Təkcə Elmar döşəkağını başına çəkib, uzanmışdı. Arabir də:

-Səs salmayın, qoyun yataq da,—deyə çığırırdı. Amma uşaqlar ona fikir verməyib, həvəslə sabahkı iş haqqında danışırdılar. Yenə Elmarın acıqlı səsi eşidildi:

-Demirəm səs salmayın, axı sabah işə gedəcəyəm.

Elmarın sözü ağzından qurtarmamış uşaqlar gülüşdülər.

-Ha... ha... ha... Elmar işə gedəcək, ay Elmar, bəyəm sən işləyirsən?

Elmar cərgə ilə düzülmüş yük maşınlarını göstərdi:

-Bəs o qədər maşını kim sürəcək, hə... Sizin bellərinizi, kürəklərinizi, vedrələrinizi, suçiləyənlərinizi eyvandan bostana qədər kim daşıyacaq hə... Bəs bu iş deyil?!

Elmar dediyi kimi də elədi. Ertəsi gün o, xeyli xırda bel, kürək, suçiləyən, vedrə, çən, maşınlara doldurub bostan sahəsinə daşıdı.

-Hə oğlum, görürəm yaman işgüzar oğlansan,- deyə bağban əmi Elmarı təriflədi.

Bir azdan, bostan sahəsində qızğın iş başlandı. Uşaqlar yer qazdılar, xəndək atdılar, torpağın altından çıxan xırda daşları Elmarın maşınına yığdılar. Elmar da bu daşları maşında aparıb divarın bir tərəfinə tökürdü. Elə ki, torpaq qaydaya salındı, uşaqlar bağban əminin göstərişi ilə toxum əkdilər. Çox çəkmədi bu toxumlar başlarını torpaqdan qaldırdılar. Qol-qanad atdılar. Ləklər boyu uzandılar. Tumurcuqlanıb, rəngbərəng çiçəklər açdılar. Uşaqlar bostanı gözdən qoymadılar. Onun hər yarpağının keşiyini çəkdilər. Əgər o tərəfdən, hasarın dalından bir nəfər yoldan keçsə idi, eyvandan o dəqiqə Sənubərin cır səsi eşidilərdi:

-Ey... ordan keçmə... orda yol yoxdur... orda bostan var... r.. r..

Günlər, həftələr gəlib keçdi. Uşaq bağçasının bostanında bol tərəvəz yetişdi. Uşaqlar bol-bol pamidor, qovun, qarpız və bağdan üzüm, əncil yedilər.

Elə ki, havalar yavaş-yavaş soyumağa başladı, bütün yayı yeyib içib dincələn uşaqlar öz bostanlarından və bağban əmidən ayrılıb şəhərə yola düşdülər.

Payız, sonra da qış gəldi. Yağışlı soyuq havalar başlandı. Hətta yeni il axşamı qar da yağdı.

Uşaqlar yeni il şənliyi keçirirdilər. Onlar bəzədikləri yolka ağacının ətrafında əl-ələ verib oynayır, şən mahnılar oxuyurdular. Amma gözləri yolda qalmışdı. Şaxta babanı gözləyirdilər. Birdən qapı açıldı. Əynində isti kürk, başında dəri papaq, üstü-başı qar içində bir nəfər içəri girdi. Uşaqlar qapıya yüyürdülər.

-Şaxta baba gəldi, Şaxta baba gəldi, - deyə çığırışdılar. Kimi Şaxta babanın ətəklərindən, kimi əlindən, kimi qollarından tutub darta-darta onu yolkanın yanına gətirdilər. Kişiyə nəfəs çəkməyə macal vermədilər. Şaxta baba güclə uşaqların

əlindən çıxdı. Torbanı yerə qoydu. Uşaqlar boylanıb torbaya baxdılar ki, görsünlər Şaxta baba onlara nə gətirib.

Baba torbanın ağzını açdı. İçəridən iri bir qarpız çıxartdı.

Qarpızı görcək Elmar təəccüblə pıçıldadı:

-Ay aman... qarpıza bax...

Ona elə gəldi ki, yuxu görür, axı heç qışda da qarpız olar. Özü də bu yekəliyində. Lap dalında gizlənmək olardı.

Uşaqlar qarpızın ətrafında fırlandılar.

Şaxta baba:

-Hə... uşaqlar, - dedi, - yeni iliniz mübarəkdir! - Sonra qarpızı göstərdi: - Sizə öz bostanımızın qarpızını gətirmişəm. Dərib qışa saxladım ki, bir yerdə yeyək, - o, kürkünü, papağını çıxartdı.

Uşaqlar Şaxta babanı tanıdılar. Bu onların köhnə dostu bağban əmi idi.



## HAMI DEYİR MƏN YAXŞI QIZAM

Evimizdə uşaqlardan—məndən və qardaşımdan söz düşəndə hamı deyir ki: - Zərifə yaxşı qızdır.

Bu söz mənim çox xoşuma gəlir, mən də həmişə yaxşı olmağa çalışıram. Səhər yuxudan duran kimi əl-üzümü, dişlərimi təmiz-təmiz yuyuram. Saçlarımı darayıram. Paltarımı, ayaqqabılarımı geyinirəm. Çörəyimi də yeyirəm.Anam da deyir ki:

-Zərifə yaman səliqəli qızdır.

Sözün düzü bircə çay tökmürəm. Anam tökür, o deyir ki:

- Çaynikə əl vurma qaynardır. Özünü yandırarsan.

Mən də əl vurmuram. Qorxuram sonra anam mənim ucumdan dərd çəkər.

Hə yadımdan çıxmışdı. Yuxudan duran kimi yerimi də özüm yığıram. Yeməkdən sonra anam stəkan- nəlbəkini yuyur, mən də dəsmal ilə onları silirəm. Təkcə evi yaxşı süpürə bilmirəm. Həmişə qapıdan süpürməyə başlayıram. Süpürürəm-süpürürəm, bir də görürəm ki, gəlib yataq otağına çıxmışam.

Anam deyir ki:

-Qızım, evi yuxarı başdan süpürərlər, gəlib qapıya çatanda zibili yığıb tullarlar.

Eh, yaxşı yadıma düşdü. Qiyamət güllərimiz var: Dulgülü, yarpaqları da lap yelpincə oxşayır. Özü də mənim yaşıl atlas paltarım kimi parıldayır, şamdangülü,

topa-topa qırmızı güllər açır, ətirgülü, bunun iyi lap qiyamətdir. Heç mixəkgülü-nü demirəm. Ən çox mixəkgülü xoşuma gəlir. Ona baxanda mənə elə gəlir ki, bu gülləri məxmərdən kəsiblər. Bir sözlə pəncərəmiz güllə doludur. Adam baxanda ürəyi açılır. Hamısını da özüm suluyuram.

Amam deyir ki:

-Bu qız axırda yaxşı bağban olacaq.

Amma mən bağban olmayacağam, dərzi olmaq istəyirəm. Elə gözəl gəlincik tikirəm ki... Götürürəm iki qarış boyda ağ parçasını, birini uzunsov qoyuram, o birini də eninə, sonra iki nazik ağac tapıram, ağ parçalarını ağaclara səriyirəm, üstündən də möhkəmcə iplə bağlayıram. Ağacın uzunsovu olur gəlinciyin bədəni, o biri olur qolları. Bir dənə də iri yastı düymənin üstünə ağ çəkirəm, onu da bitişdirirəm uzunsov ağacın başına. Bu da olur onun başı. Əl boyda parçanı ortasından deşirəm, keçirdirəm gəlinciyin başından. Bu da olur onun paltarı. Başına da güllü çitdən ləçək bağlayıram. Elə gözəl olur ki... Bunları mənə nənəm öyrədir. O deyir ki:

-Qız uşağısan, gərək indidən iynə-sap tutmağı bacarasan.

Atama da qulluq eləyirəm. O, işdən gələn kimi qabağına qaçıram. Parağını, şərfini əlindən alıram. Sonra ayaqqabılarının bağını açıram ki, çəkmələrini asan çıxartsın, ayaqları bir az dincəlsin.

-Anam deyir ki: zərifə yaman işgüzar qızdır.

Atam da deyir ki:

-Bu qız, qız deyil, qızıldır,qızıl.

Amma heç başa düşmürəm ki, atam nə üçün mənə qızıl deyir. Axı mən qızıl deyiləm. Zərifəyəm, Zərifə.



## BU ÇİÇƏKLƏR NİYƏ MƏNDƏN QAÇIRLAR?!

İsrafilin çoxlu çiçək dibçəkləri var idi. O. bu dibçəkləri otağın bir tərəfində, kiçik bir stolun üstünə düzmüşdü. Onlara hər gün su verirdi ki,quruyub xarab olmasınlar. Yumşaq tənziflə yarpaqlarını silirdi ki, toz onların rəngini soldurmasın. Çiçəklər də İsrafili sevindirirdilər. Onlar qol-budaq atıb böyüyürdülər. Bahar olcaq rəngbərəng, cürbəcür güllər açırdılar. Bu gülləri görən İsrafil daha da həvəslənir, öz çiçəklərinə daha yaxşı qulluq edirdi.

İsti yay, küləkli, yağışlı payız fəsli ilə əvəz olundu. Havalar get-gedə soyumağa başladı. Günəş öz istisini azaltdı. Atası İsrafilə dedi ki:

-İndi çiçəklərinə iki gündən bir su vermək kifayətdir. Çox su versən onların kökləri çürüyər.

İsrafil də çiçəklərinə iki gündən bir su verməyə başladı.

Bir dəfə İsrafil uşaq bağçasından qayıdan kimi suçiləyəni doldurub, çiçəklərini sulamaq istədi. Amma nə gördü. Bütün çiçəklər yarpaqlarını pəncərəyə tərəf uzadıb elə bil pəncərəyə:

-Məni qucağına al,- deyirdilər.

İsrafili gülmək tutdu. O, çiçəklərə su verdi,
yarpaqlarını tənziflə üsulluca sildi və:

-Yaxşı, indi mən sizi pəncərəyə düzərəm, - dedi.

Bu hadisədən bir neçə gün keçdi.

İsrafil yenə çiçəklərə su vermək üçün pəncərəyə yaxınlaşdı və təəccübündən quruyub yerində qaldı. Onun sevimli çiçəkləri arxalarını ona çevirmişdilər. Atlas kimi parıldayan yarpaqlarını pəncərənin şüşələrinə elə dirəmişdilər ki, elə bil bu saat şüşələri qırıb bayıra qaçacaqdılar.

İsrafilin ürəyi bərk sıxıldı. O, atasının yanına qaçdı. Dodaqlarını büzüb ağlamsındı.

-Atacan, görəsən bu çiçəklər niyə məndən qaçmaq istəyirlər. Bəlkə inciyiblər, bəlkə məndən küsüblər?

Oğlunun sadəlövhlüyünə atanın gülməyi tutdu.

-Yox, oğlum, çiçəklər səndən qaçmırlar, onlar yaşamaq istəyirlər, - dedi.
İsrafil təəccüblə bir çiçəklərə, bir də atasına baxdı:

-Yaşamaq istəyirlər?! Yaşasınlar da... Mən də onlara qulluq edirəm. Su verirəm...

Ata oğlunun başını sığalladı:

-Onların yaşaması üçün tək su kifayət deyildir. Bütün canlıların həyatı üçün su, hava və günəş lazımdır. İndi payızdır. Günəşin istiliyi bizim tərəflərdə azalmışdır. Günəş işığı otara nisbətən pəncərə şüşələrinə daha çox düşdüyündən onlar şüşəyə söykəniblər. - Bildinmi?!

Bayaqdan bəri heyrətlə atasını dinləyən İsrafil:

-Başa düşdüm, - dedi və çiçəkləri eyvana daşımağa tələsdi, çünki günəş ora daha çox düşürdü.



**NƏ TOP TAPILDI, NƏ DƏ YAŞAR**

Uşaqlar futbol oynamaq fikrinə düşdülər. Onlar bir parça kömür tapıb həyətin ortasında oyun meydançası cızdılar. hərə evdən analarına lazım olmayan tor zənbil tapıb gətirdi. Bu torları bir- birinə bitişdirdilər. Meydançanın hər iki tərəfindən asaraq qapı qayırdılar. Hər iki tərəfin qapısı vurulmuş topu öz toruna toxunmağa qoymamalı idi. Yaşar bir tərəfi göy, bir tərəfi qırmızı bir tor gətirib, meydançanın ortasına qoydu. Uşaqlar dəstələrə bölündülər. Amma Yaşarı oynatmadılar, dedilər ki:

-Sən qızsan, qız isə futbol oynamaz.

Bu söz Yaşara təəccüblü gəldi. O, yaşına yaraşmayan yoğun səslə dedi:

-Qız ha... heç oğlana da qız deyərlər. Axı o nə bilə idi ki, uşaqlar bunu yalandan belə edirlər. Yaşar oğlandır. Amma onu oyuna buraxmamaq üçün bəhanə gətirirdilər. Qorxurdular ki, Yaşar toru vura bilməsin.

Oyun başlandı. Gah bu, gah o biri tərəf topa zərbə vurur, düşmən tərəfə üstün gəlmək istəyirdi. Yaşar da pilləkənin üstündə oturub, həvəslə uşaqlara baxırdı.

Birdən Adil yıxılıb dizi sıyrıldı. O, qalxıb topa zərbə vurmaq istədi, amma bacarmadı. Uşaqlar Adili əvəz etməyə adam axtardılar. Kazım dedi ki:

-Qoy bu balaca oğlan oynasın.

Yaşar dodaqlarını büzdü. Yenə yoğun səslə:

-Balaca oğlana bax ha... mən balaca olsa idim heç sizin həyətinizə gələ bilərdim?- dedi və məzəmmətlə uşaqlara baxdı.

-Yaxşı gəl görək,—deyə Firuz Yaşarı meydançaya çağırdı. Yaşar sinəsini qabağa verdi. Çiyinlərini dartdı. Oyun meydançasına girdi.

Dəstələr çox atılıb-düşdülər, çox o tərəf, bu tərəfə topun dalınca qaçdılar... Topa çox zərbə vurdular. Amma hesab “0”- dan yuxarı qalxmadı ki, qalxmadı. Qapıçılar yaman ayıq idi. Onlar düşmən tərəfin topunu göydə tuturdular. Oyunun qurtarmağına az qalmışdı. Axırıncı zərbəni Yaşar vurmalı oldu. Həm oyunçular, həm də pilləkən üstə oturmuş uşaqlar narahat idilər. Hətta topun hərəkətini gözdən qoymayıb, dalınca qaçan Xallı da bərk naraham idi. Axı Yaşar, doğrudan da, çox balaca idi.

Amma yaman güclü idi. Nə isə... Yaşar geri çəkildi. Bir ayağını dala qoydu. O biri ayağını qaldırdı və topa elə bir zərbə, elə bir zərbə vurdu ki, zərbənin gücündən düşmən dəstəsinin qapıçısı tappıltı ilə yerə dəydi.

Tamaşaçılardan biri:

— Qol!—çığırdı.

Hamı hərəkətə gəldi. Oyunçular düşmən qapısına göz gəzdirdilər ki, görsünlər top topa dəydi ya yox. Amma topu orada görmədilər. Onlar oyun meydançasına, dama, pilləkənin altına baxdılar. Amma orada topu tapmadılar. Bütün qapıları gəzdilər, hətta su çəlləklərinə də baxdılar. Amma nə topu tapdılar, nə də Yaşarı.

Yaşar isə axsıya-axsıya çoxdan öz həyətlərinə qaçmış, səkinin üstündə əyləşmişdi. Yırtılmış topu ayağından çıxarda-çıxarda öz-özünə deyinirdi:

-Bəyəm bu uşaqlar bilmirdilər ki, bu top futbol topu deyil!



**KİTABI NİYƏ OXUYURSAN?**

Balaca Tofiq böyüyür. Böyüdükcə də hər şeylə maraqlanırdı.O, hər axşam nənəsinin əlindən tutub dəniz kənarına gəzməyə gedirdi. Burada nənəsinə bir-birinin dalınca sual verməkdən yorulmurdu.

-Nənəcan o gəmilər nə üçün suya batmır?

Nənə də oxuduqlarından, eşitdiklərindən onu başa salırdı. Söz ağzından qurtarmamış Tofiq yenə sual verirdi.

-Nənəcan, bəs o ulduzları göyə necə düzüblər? Ayı nə üçun göyün mən ortasına qoyublar? Bəs nə üçün onlar yerə tökülmür, hə?

Suallar çoxaldıqca nənənin də zəhməti artırdı. O, gününün çox hissəsini kitablar arasında, kitab oxumaqla keçirirdi.

Belə vaxtlarda da Tofiqin sualları qurtarmırdı.

Bir dəfə nənə səhər tezdən kitab şkafının qabağında durub, bir-bir kitablara baxırdı.Tofiq nənəsini görcək onun yanına qaçdı və tələsik soruşdu ki:

-Nənəcan sən şkafdan nə axtarırsan?

-Tofiq, kitab şkafından adam nə axtarar. Əlbəttə ki, kitab axtarıram.

-Kitab?! - deyə Tofiq yenə sevincək soruşdu: - Kitabı neyləyirsən?

-Eh... ay Tofiq, danışmağa həvəsin gəlib, kitabı nə edərlər, oxuyarlar da... Mən də oxumaq üçün kitab seçirəm.

-Hə... indi başa düşdüm,-deyə Tofiq səsini ucaltdı və yenə soruşdu ki:

-Nənəcan, axı sən bu qədər kitabı nə üçün oxuyursan?

Nənənin əlacı kəsilib Tofiqi dizləri üstündə oturtdu:

-Bax, bu yaxşı söz oldu. Kitabı onun üçün oxuyuram ki, sənin bütün suallarına cavab verməyi öyrənim, başa düşdün.

Tofiq nənəsinin cavabından sevinib:

-Mənim qəşəng nənəm, yaxşı nənəm, sən mənə həmişə kitab oxuyacaqsan?— deyə onu dilə tutmağa başladı.

-Yox, Tofiq, - deyə nənə eynəyini gözlərindən çıxardıb fikrə getdi. O, artıq qocalmışdı. Gözləri də pis görürdü. Buna görə də:

-Yox, mən sənə kitabı, sən məktəbə gedənə qədər oxuyacağam. Sonra isə... Sən mənə kitab oxuyacaqsan, - dedi.



**ATA, ONA DE Kİ, ÇIĞIRMASIN**

Körpə Aydın çarpayıda şirin yuxuya getmişdi. Onun böyük qardaşı Elçin isə şəkillərə baxıb, kubları yan-yana düzürdü. O, bunlardan dəvə, at, fil, ayı şəkilləri düzəldirdi. Birdən dovşan şəklini görcək, bərkdən oxumağa başladı:

-Dovşan-dovşan a dovşan.

Divanın üstündə oturub qəzet oxuyan atası:

-Səs salma Elçin, Aydını oyadarsan, - dedi. Amma Elçin şəkilə baxdıqca elə oxumaq istəyirdi ki... O, atasının dediyini guya eşitmədi, mahnısını daha da ucadan oxumağa başladı.

Qaçma dayan a dovşan
Qaçsan səni tutaram...

-Elçin! - deyə ata narazı halda yavaşca çığırdı: - Sənə demirəm səs salma, adam özündən böyüyün sözünə baxar, axı... Aydını oyadarsan. Bilmirsən anan gec gələcək.

Elçin susdu, daha mahnı oxumadı. Aydın da xoşbəxtlikdən oyanmadı. Ata isə bir az da qəzet oxudu. Yoruldu. Divanın üstünə uzanıb yuxuya getdi.

Xeyli keçdi, yuxudan doymuş və acımış Aydın əl-qolunu atıb çığırmağa başladı. Qardaşının səsini eşitcək Elçin yerindən dik qalxdı. Çarpayıya yaxınlaşdı. Barmağını dodaqlarına söykədi:

-Suss... Səs salma, ata yatıb.

Amma Aydın qardaşının nə dediyini başa düşmədiyindən daha da bərkdən çığırdı:

-İnqə... inqə... inqə...

-Eh... inqə... - deyə Elçin öz-özünə deyinə-deyinə atasının yanına getdi. Onu silkələməyə başladı:

-Ata, atacan, ona de ki, böyük qardaşın deyir səs salmasın, çığırmasın, elə çığırır, axı səni yuxudan oyadar.



**NADİR NƏ ÜÇÜN DARIXIR**

Nadirgilin yaşadığı həyətdə çoxlu uşaq var idi. Şeypurçu Elman, qırmızı bantlı Mehparə, balaca boylu Sevinc, şofer Qara, növbətçi Ülfət. Hər gün, səhər açılan kimi onlar oyuncaqlarını götürüb həyətə oynamağa çıxardılar. Ondarın şən gülüşləri, maraqlı oyunları böyükləri də həvəsə salırdı. Amma Nadir həmişə darıxırdı.

Bir dəfə Nadir anası ilə bərabər həyətə açılan eyvanda əyləşmişdi. Ana pikişlə məşğul idi. Nadir isə boylanıb uşaqlara tamaşa edirdi. Birdən o anasına qısılıb:

-Axı mən darıxıram, - dedi və üz-gözünü turşutdu.

Ana təəccüblə oğluna baxdı.

-Niyə darıxırsan, gətir oyuncaqlarınla oyna.

-İstəmirəm, darıxıram.

-Onda düş həyətə, uşaqlarla oyna.

Nadir yanğın söndürən maşınını, qanadlarında qırmızı ulduz nişanı olan təyyarəsini, avtomat silahını və oyuncaq telefon aparatını götürüb həyətə düşdü.

Nadiri həyətin bir küncündə görən uşaqlar cəld onu dövrəyə aldılar.

Elman şeypurunu Nadirə uzatdı:

-Gör nə yaxşı şeypurdur. Al çal, bax belə du... du... du

Nadir maraqla şeypura baxdı. Əlini uzadıb- ver demək istəyirdi ki, Elman onun qırmızı ulduzlu təyyarəsini göstərib:

-Sən də onu ver oynadım,-dedi:

Elmanın sözü Nadirə xoş gəlmədi. O, təyyarəsini sinəsinə sıxdı.

-Yox... Anam qoymaz.

Mehparəyə elə gəldi ki, şeypur Nadirin xoşuna gəlmədi. Öz gəlinciyini ona uzatdı.

-Nadir gör nə gözəl gəlincikdir, al oynat.

Mehparə gəlinciyi uzandırdı. O, gözlərini yumdu.

-Görürsən yatan-durandır a...—Nadir təəccüblə gəlinciyə baxdı. Əlini uzatdı ki, onu alıb oynatsın. Birdən Mehparəyə bərk acığı tutdu.

-Buna bax... heç oğlan da gəlinciklə oynayar, - deyib gəlinciyi itələdi.

Şofer Qaranın gözü çoxdan Nadirin qırmızı yük maşınında qalmışdı.O, əlini sinəsinə döydü:

-Nadir mən yaxşı şoferəm. Maşınını ver, gör necə sürürəm.

Nadir özünü silkələdi.

-Hm... m... m... verirəm... - dedi.

Elə bu dəmdə Sevincin iri topu Nadirin qabağında yerə dəyib bir neçə dəfə atılıb-düşdü: - "Gup... gup... gup".

Nadir, oyuncaq avtomat silahını işə saldı.

-Bum.. bum... bum... Gedin buradan, mən sizinlə oynamaq istəmirəm, - deyə çığırdı. Uşaqlar təəccüblə Nadirə baxdılar. Mehparə uşaqlara işarə etdi ki:

-Gedək. Nadir davakar oğlandır. - Uşaqlar Nadiri tək buraxıb həyətin ortasına qaçdılar.

Nadir oyuncaqları ilə bərabər anasının yanına qayıtdı. Anasına qısıldı və:

-Axı mən darıxıram, - deyə pıçıldadı.

Ana boylanıb həyətdəki uşaqlara göz yetirdi. Onlar yenə də şən mahnılar oxuyur, maraqlı oyunlar oynayırdılar. Sonra o, Nadirə baxdı. Başını tərpətdi. Qüssə ilə dedi:

-Eh Nadir, indi bildim ki, sən nə üçün darıxırsan. Sənin cürbəcür oyuncaqların var, amma dostun yoxdur. Bax buna görə də darıxırsan.



## Q A Ç D I - T U T D U

Əhmədgilin evi kəndin qırağında, qəbristanlıqdan bir az aralı idi. Buna görə də Əhməd hava qaralar-qaralmaz səhərdən oynadığı uşaqlardan ayrılıb evə qaçardı. Tək otaqda oturmaz, tək yatmazdı. Anası və özündən böyük bacıları hara getsə idi Əhməd də onların dalınca qaçardı. Axşam yatanda çırağı söndürməyə qoymazdı. Amma səhər açılan kimi yenə uşaqların yanında durub, qəhrəmanlıqdan dəm vurardı.

-Eh... Mən gecə yarısı tək başıma kəndin o başına gedərəm, - deyərdi.

-Ay Əhməd, niyə yalan deyirsən, sən qorxundan bütün günü ananın dalınca gəzirsən,-deyə uşaqlar onu yamsılayırdılar.

Bir axşam üstü uşaqlar söz qoydular ki, indi ki, Əhməd bu qədər qəhrəmanlıqdan danışır, gəl onu yoxlayaq, bəlkə elə düzünü deyir.

-Yaxşı, gəlin yoxlayaq, əgər qorxacaqdırsa, ona bu xasiyyətini tərgitmək lazımdır,-deyə uşaqlar Əhmədin yanına getdilər.

-Əhməd! Əhməd!—çığırdılar. Mehdi Əhmədə dedi ki:

-Əhməd qaçdı-tutdu oynamaq istəyirsən?

-Niyə istəmirəm,—deyə Əhməd cavab verdi.

-Yaxşı onda düş həyətə.

Əhməd eyvandan həyətə düşdü. Onlar dəstə ilə qəbristanlıq tərəfə yollandılar. Əhməd əl-qolunu ata-ata qəhrəman kimi ortada, uşaqlar da onun dörd tərəfində gedirdi. Onlar qəbristanlığı keçib qum təpələrindən birinin ətəyində dayandılar.

-Hə... sayıram kim qalsa o tutacaq, - deyə Mehdi əlini uşaqların sinəsinə vura-vura saymağa başladı.

Əkil-bəkil quş idi.
Divara qonmuş idi.
Getdim onu tutmağa,
O, məni tutmuş idi...
Meydana salmış idi...
Meydanın ağacları,
Dən gətirib ucları.
Çəpər çəkdim, yol açdım
Qızılgülə dolaşdım
Bir dəstə gül dərməmiş
Nə... nə.... si gəldi mən qaçdım!

Mehdi saydıqca uşaqlar bir-bir cərgədən çıxdı. Tutmaq Əhmədə düşdü.

Uşaqlar qaçdı, Əhməd də onları tutmağa çalışdı. Bir-bir hamını tutdu. Təkcə Mehdini tuta bilmədi. Mehdi gah ağac dalında, gah yoldaşlarının birinin arxasında o tərəf, bu tərəfə atılırdı. Gah da baş götürüb qaçırdı. Birdən o birbaş qəbristanlıq tərəfə qaçdı və köhnə qəbirlərdən birinin yanında durdu. Əhmədi qorxu götürdü.

-Görəsən indi nə eləyim?-deyə fikirləşdi və altdan-altdan yoldaşlarına baxdı. Uşaqlar ona baxıb gülümsünürdülər. Əhmədə elə gəldi ki, əgər Mehdini tutmasa hamı onu lağa qoyub:

-Qorxacaq Əhməd, - deyib çığıracaq.

Əhməd çiyinlərini dartdı. Sinəsini qabağa verdi. Gözucu yoldaşlarına baxıb, qəbristanlıq tərəfə üz qoydu.

Artıq hava qaralmışdı. Ay da yavaş-yavaş ətrafı işıqlandırırdı. Mehdi qaçır, Əhməd də onun dalınca... Onlar çox qaçdılar. Birdən Əhmədə elə gəldi ki, qara

paltarlı uzun bir adam onun dalınca gəlir. Əhməd evlərinə tərəf üz qoydu. Uzun adam da onun dalınca, Əhməd addımlarını yeyinlətdi. Uzun adam da onun dalınca Əhmədə çatmağa tələsdi. Əhməd yüyürməyə başladı. Uzun adam da yüyürdü. Əhməd:

-Ana! Anacan!-çığırıb özünü bir təhər həyətlərinə saldı. Uzun adam da onun dalınca həyətə girdi və yumrulanıb, yox oldu. Ana və uşaqlar Əhmədi dövrəyə aldılar.

-Ay Əhməd, yoxsa kölgəndən də qorxursan, - deyə anası onu məzəmmətlədi. Uşaqlar isə qəhqəhə çəkib Əhmədin qorxaqlığına güldülər.



## ÇEMPİON KAZIM

Qızlar həyətdə ipatdı oynayırdılar. Oğlanlar da pilləkənlərin üstündə oturub onlara tamaşa edirdilər.

Rəna ip üstündən atlanmaqda yaman usta idi. İp onun ayaqlarının altından elə keçirdi ki, heç barmaqlarının ucuna da toxunmurdu. Ziyafət isə atıla bilmirdi. İpin üstündən atlanmaq istəyəndə, ip Ziyafətin ayaqlarına ilişirdi.

Oğlanlar Rəna atılanda əl çalır, urra... çığırırdılar. Ziyafətə isə gülürdülər. Buna görə də Ziyafət küsdü və ipin ucunu yerə atdı:

-Mən səninlə oynamıram - dedi, gedib oğlanların yanında, pilləkənin üstündə oturdu.

Rəna tək qaldı. O,gah ipin qapı dəstəsinə bağlanmış ucuna, gah da yerə atılmış tərəfinə baxdı.

-Bəs indi ipi kim hərlətsin, axı mən atlanmaq istəyirəm, - deyə fikirləşdi, sonra pilləkən üstündəki oğlanlara:

-Ey... gəlin ipatdı oynayaq, - dedi.

Oğlanlar gülüşdülər.

-hi... hi... hi... ipatdı ha... heç oğlan da ipatdı oynayar?

-Oynamayın... özüm tək atdanaram. Bayaqdan bəri Kazım həvəslə ipə baxırdı, özü də yaman atdanmaq istəyirdi. O, baxdı, baxdı... Rənadan ipin ucunu alıb hərlətməyə başladı.

-Atdan görüm, - dedi.

Rəna sevindi. Kazım ipi hərlətdi. Rəna da atdandı... atlandı... Axırda onun ayaqları yoruldu, ipə ilişib, yerə yıxıldı. Oğlanlar gülüşdülər.

- Hə indi sən hərlət,—deyə çığırışdılar.

Rəna ayağa qalxdı. İpin boş ucunu yerdən qaldırıb tənbəl-tənbəl hərlətməyə başladı.

-Atdan Kazım.

-Hə atdan da, - deyə yer-yerdən çığırışan oğlanlar yaman təşvişə düşmüşdülər.

Kazım isə hərlənən ipə baxır, baxır və elə bil atılmağa qorxurdu. O, xeyli durdu və birdən atılmağa başladı. Rəna ipi hərlədir, Kazım atlanırdı. Kazım atlandıqca Rəna qızarıb, bozarırdı. O, qorxurdu ki, Kazım ondan çox atlanar.

Oğlanlar isə əllərini bir-birinə vurub:

-Bir, iki, üç, dörd, beş, altı, yeddi, səkkiz, doqquz, on, - deyə sayırdılar.

Onlar saydılar, saydılar, hərə bir yerdə çaşıb qaldı. Təkcə Ziyafət sayı axıra qədər apara bildi. O, öz əl barmaqlarını ayaq barmaqlarını, Aydının əl barmaqlarını, ayaq barmaqlarını, Elçinin, Eldarın, Eyvazın əl barmaqlarını, ayaq barmaqlarını yeyin-yeyin sayıb qurtaranda əllərini bir-birinə vurdu və ucadan:

-Çempion! Çempion Kazım! - deyə çığırdı.



## XƏBƏRÇİ TUTUQUŞU

Fuadın babası, eyvanda rəngbərəng quşlar saxlayırdı. Fuad hər gün bağçaya gedəndə eyvana çıxardı ki, quşlarla sağollaşsın. Axşam da evə gələndə babası ilə birlikdə quşlara dən səpər, su verərdi. Quşlar da hər səhər-axşam onlara gözəl, şən nəğmələr oxuyardılar.

Bir səhər Fuad yenə quşlarla sağollaşmaq üçün eyvana gəldi. Burada quş qəfəslərinin cərgəsində təzə bir qəfəs gördü. Bu qəfəsdə rəngbərəng lələkləri, qırmaq kimi dimdiyi, girdə gözləri olan bir quş vardı. Fuadı görçək quş gözlərini tez-tez döyməyə və qəribə səslər çıxartmağa başladı.

Fuad xeyli quşa baxdı və babasından soruşdu ki:

- Babacan, bu quşu haradan almısan?

Baba məhəbbətlə quşa baxdı. Uzun, çal bığlarına sığal verdi, O, bir şeydən razı qalanda həmişə belə edərdi. Sonra dedi ki:

-Bu quşu mənə köhnə dostlarımdan biri hədiyyə göndərib. Yaman qiymətli quşdur. Çətin ələ düşür.

Baba əlindəki ət parçasını tutuquşuya atdı. Sonra Fuadı başa saldı ki, tutuquşuların bu cinli quzğun quşlardan sayılır. Bunlar ət yeyən quşlardandır. Bu

quşlar cənubi Amerikada, Argentina meşələrində əgər bir ovçuya rast gəlsələr, onun üzərinə qonub parçalaya bilərlər. Amma bax bu qəfəsdəki tutuquşu isə əhliləşdirilmişdir,

Fuad maraqla babasını dinləyir, təəccüblə tutuquşuna baxır:

-Buna bax ha... Gör nə gözəl rəngləri var. Adamın gözlərini qamaşdırır.Amma hayıf ki, vəhşi quşdur, - deyə fikirləşirdi.

Fuadın tutuquşuya bərk acığı tutdu. Buna görə də o gündən hər gün quşu acıqlandırmağa, darıxdırmağa çalışardı. Gah deyərdi ki: səni pişiyə atacağam yesin, gah əlini qaldırıb qəfəsə çırpardı. Tutuquşu da acıqlı-acıqlı o tərəf, bu tərəfə çevrilən qanadlarını çırpardı.

Fuada elə gələrdi ki, tutuquşu qorxusundan belə edir. Ürəyi rəhmə gələrdi. Tutuquşu da gözlərini döyüb maddım-maddım Fuada baxardı.

Bir dəfə baba Fuada dedi ki:

-Fuad, balası, quşlarda gözün olsun, mən düşüm aşağıdan quşlara dən alım, yoxsa lap acından öldülər.

-Arxayın ol, babacan, - deyə Fuad babasını yola saldı.

Elə ki, babanın ayaq səsləri kəsildi. Fuad o dəqiqə gəlib tutuquşunun qabağında durdu:

-Hə, tutuquşu, - dedi, - indi quşları açıb buraxacağam. Bir az eyvanda uçub kef eləsinlər. Amma səni qəfəsdən bayıra buraxmayacağam.

Tutuquşu sakit-sakit Fuada baxdı. Sonra gözlərini tez-tez döydü. Fuad elə bildi ki, tutuquşu da o biri quşlar kimi açıq havada uçmaq istədiyi üçün ona belə baxır.

Axı azadlıqda uçmağı hansı quş arzulamazdı.

Fuadın tutuquşuya yazığı gəldi.

-Yaxşı, yaxşı. yalan deyirəm səni də buraxacağam, - dedi və stulun üstünə çıxdı. Qəfəslərdən birini açdı. Babanın ən çox sevdiyi sarı bülbülü ovcunun içinə qoydu, quşun ürəyi elə çırpınırdı ki... Fuad quşun qanadlarını hamarladı, dodaqlarını uzadaraq: - Qorxma, qorxma sənə heç nə etməyəcəyəm, uç, kef elə, - deyib ovcunu açdı. Bülbül o dəqiqə qanad çalıb eyvandan uzaqlara uçub getdi və

bir daha qayıtmadı. Fuad qorxusundan nə edəcəyini bilmirdi. O, babasına nə cavab verəcəkdi. Elə bu vaxt dəhlizin qapısı açıldı. Baba eyvana girdi.

-Oğlum, indi quşları doyunca yedirdərik, - dedi. Birdən onun gözü sarı bülbülün qəfəsinə sataşdı. O, həyəcanla soruşdu: - Fuad qəfəsi kim açıb, mənim bülbülümün başına nə iş gəlib.

Fuad bir babaya, bir tutuquşuya baxdı və dili dolaşa-dolaşa:

-Tutuquşu, tutuquşu buraxdı, - dedi.

-Tutuquşu?! - deyə baba təəccüblə tutuquşuya baxdı. - Ay tutuquşu, bu nə işdir sən elədin.

Tutuquşu gözlərini döydü. Qanadlarını çırpdı. Narahat halda başını o tərəf, bu tərəfə tərpətdi və:

-Yaxşı, yaxşı yalan deyirəm, - çığırdı.

Fuad yerində quruyub qaldı. Rəngi saraldı. Qorxdu ki, tutuquşu indi məsələnin hamısını açıb deyə, nə qədər quşa göz-qaş elədi ki, danışmasın, amma tutuquşu elə dediyini deyirdi:

-Yaxşı, yaxşı yalan deyirəm.

Fuadın quşa bərk acığı tutdu. Öz-özünə fikirləşdi ki, gör nə xəbərçi quşdur, gör necə xəbərçidir ki, hirsindən dil açıb.

Amma tutuquşu heç də xəbərçi deyildi. Sadəcə tez-tez eşitdiyi sözləri əzbərləməyi bacarırdı.



## BALACA ARTİST

Kazım çox gözəl oğlan idi. Onu həyətdə hamı sevirdi. Xüsusi ilə Cabbar əmi. O, hər Kazımı görəndə:

-Hə, artist, işlər necə gedir,-deyə soruşardı. Kazımdan- yaxşı cavabını alcaq gülə-gülə həyətdən çıxardı.

Qonşular, Cabbar əmini Kazımı nə üçün artist çağırdığına təəccüb edərdilər. Amma burada nə təəccüblü iş var axı?!.

Bir dəfə Cabbar əmi həyətdəki üzüm talvarının altında idman edirdi. Deyirdi ki:

-Qarnım yaman yekəlib, rahat gəzə bilmirəm. Gərək idmanla məşğul olam ki, bir az arıqlayam.

Hə... Cabbar əmi idmanla məşğul idi, bir də gördü ki, Kazımgilin eyvanlarının. qapısı açıldı. Əynində zolaqlı paltar, başında zənbil papaq, əlində əsa olan bir nəfər bayıra çıxdı. Əvvəl Cabbar əmiyə elə gəldi ki, bu adam Kazımın atasıdır. Amma həmin dəqiqə yadına düşdü ki, Kazımın atası hündür kişidir, qapıdan çıxan isə gözünə bir təhər göründü. Deyəsən çox balaca idi, lap cırtdan boyda.

Cırtdan əsasını yerə döyə-döyə həyətə düşdü. Öz-özünə oxuyub oynamağa başladı. Onun pencəyinin qolları dizlərinə qədər sallanmışdı. Başındakı papaq gözlərinin üstünü örtmüşdü. Əlindəki əsa isə elə özü boyda idi.

Cabbar əmi uzaqdan pis görürdü. O, eynəyini gözlərinə taxdı, diqqətlə atılıb-düşən cırtdana baxdı. Onu gülmək tutdu. Əlini-əlinə vurdu:

-Eh... ay Kazım, mən də deyirəm bu cırtdan haradan gəlib düşüb həyətimizə - lap artistsən ki, artist.

Artist sözünü eşitcək Kazım papağını gözlərinin üstündən qaldırdı. Təəccüblə Cabbar əmiyə baxdı. Sonra şalvarının balaqları ayaqlarına dolaşa-dolaşa pilləkənlərlə yuxarı-aşağı düşür- çıxır, çığırırdı:

-Ay can, ay can, artistəm, mən artistəm!

Kazımın səsini eşidən uşaqlar gözlərini ova-ova pəncərələrdən boylanıb həyətə baxdılar. Çox çəkmədi ki, həyət hər günkü kimi uşaqla doldu. Onlar Kazımı dövrəyə aldılar.

Qırmızı lentli İradə əllərini bir-birinə vurdu:

-E... e... Kazım atasının pejamasını geyinib.

-E... e... Kazım atasının pejamasını geyinib, - deyə Kazım üz-gözünü elə əydi, İradəni elə yamsıladı ki, adamın lap gülməyi tutdu.

Yaşar onları sakit etməyə çalışdı:

-Bir dayanın görək... yenə başladılar...

Tələt, Kazımı təpədən dırnağa kimi süzdü:

-Ay Kazım, belə niyə geyinmisən?

Kazım əllərini pencəyinin ciblərinə soxdu, çiyinlərini dartdı, yenə bədənini əzib-büzdü:

-Mən artist olmuşam, - dedi.

Uşaqlar təəccüblə Kazıma baxdılar.

-Artist? Sən artistsən,- deyə bir ağızdan soruşdular.

-Hə, hə, artist olmuşam. Cabbar əmi dedi ki, mən artistəm.

Sonra o, uşaqdarı diqqətlə nəzərdən keçirdib pıçıltı ilə:

-Bura gəlin, bura gəlin, - dedi.

Uşaqlar daş pilləkənin altına yığışdılar. Onlardan bəzisi divara söykədilmiş nərdivanın, bəzisi boş yeşiklərin, bəziləri də kərpiclərin üstə əyləşdi. Təkcə Kazım ayaq üstündə durmuşdu. 0, başını uşaqlara tərəf uzadaraq:

-Uşaqlar, bilirsiniz nə var?! Gəlin teatr göstərək, - dedi. .

Uşaqlar təəccüblə soruşdular:

-Teatr?

-Hə, hə. Teatr, odu orada, bizim eyvanın başında.

-Göstərək də... - deyə Yaşar qaşlarını çatdı.

-Göstərək də, göstərək, göstərək, - deyə uşaqlar ağız-ağıza verib çığırışdılar.

Birdən ara sakitləşdi. Amma bu sakitlik çox çəkmədi. İradə maraqlanıb soruşdu ki:

-Bəs biz hansı teatrı oynayacağıq, hə?

O, bu sözü elə nazla, elə nazla dedi ki, adamın lap zəhləsi getdi. Başqa vaxt olsa idi, yəqin Kazımın İradəyə bərk acığı tutardı. Amma indi iş görmək lazımdı...

Tahirə uşaqlardan ən böyüyü idi. O, artıq məktəbə gedirdi. Məktəblilərin göstərdikləri tamaşalarda iştirak edirdi. Gördüyü bu tamaşalardan ən çox onu pioner Pavlik Morozovun həyatından danışan tamaşa maraqlandırırdı. O, bu əsəri dönə-dönə görmək, Pavlik kimi pioner olmaq istəyirdi. Buna görə də uşaqlara dedi ki:

-Uşaqlar gəlin Pavlik Morozovu oynayaq.

-Oynayaq, oynayaq, - deyə uşaqlar hər tərəfdən öz razılıqlarını bildirdilər.

Tahirə rolları, vəzifələri bölüşdürdü. Kazıma da Pavlik rolunu tapşırdı. Pavlik! Bu qəhrəman pioner hələ keçən ildən Kazımın xoşuna gəlmişdi. Keçən il beşinci sinifdə oxuyan qardaşı ilə bərabər məktəbə teatra getmişdi. Tahirə də burada idi. Qardaşı, Kazımı Tahirənin yanında, birinci cərgədə oturtdu və ona tarşırdı ki, tamaşa qurtarana qədər Kazımı tək buraxmasın. Özü isə çıxıb getdi.

Tahirə əlini Kazımın çiyninə qoydu:

-Kazım darıxırsan?

-Qardaşımı istəyirəm.

-Qardaşını istəyirsən, yoxsa qorxursan? Bura bax Kazım, sən Pavliki tanıyırsan?

-Hə... Bəs sən də tanıyırsan?—deyə Kazım maraqla Tahirənin cavabını gözlədi.

-Onu bütün uşaqlar tanıyır.

-Bəyəm sən onu görmüsən?

-İndi bərabər görəcəyik də, - deyə Tahirə arxayın cavab verdi.

Zəng çalındı. Pərdə qaldırıldı və tamaşa başlandı. Bir azdan səhnədə pioner kostyumlu bir oğlan göründü. Bu oğlan Pavlik idi. Amma Kazıma elə gəldi ki, Pavlik onun qardaşına yaman oxşayır.

-Özüdür, lap özüdür, - deyə Kazım fikirləşdi.

Kazım xatırladı ki, qardaşı hər gün ayna qabağında durub əzbərlədiyi sözləri bir-birinin dalınca deyərdi. İndi də səhnədə onun qardaşı Pavlikin özü olmuşdu. O gündən, Kazım hər qardaşını görəndə Pavlik Morozovu xatırlayardı. Onun qəhrəmanlığı, qorxmazlığı, boynundakı qırmızı qalstuku - hər şeyi Kazım üçün əziz idi. Hətta o, tez-tez ayna qabağında durub özünü Pavlikə oxşadardı. Qardaşından eşitdiyi sözləri əzbərdən deyərdi.

İşə bax ha... İndi Tahirə deyirdi ki, Kazım da Pavlik olsun.

Nə isə... O gün uşaqların başı işə o qədər qarışdı ki, həyətdə heç kəs onların nə özünü gördü, nə də səsini eşitdi.

Bu əhvalatdan bir neçə gün keçdi. İstirahət gününün axşamı uşaqlar yenə pilləkənin altına yığıldılar.

-Ay Tələt, hazırlaşaq da. Bir azdan camaat işdən gələcək axı, - deyə Tahirə Kazımın fikrini bilmək istədi.

Kazım dedi ki:

-Hazırlaşaq.

İradə çiyinlərini yığdı. Özünü elə büzdü ki, elə bil ona bərk soyuqdur.

-Ürəyim tir-tir əsir. Qorxuram, heç bilmirəm mən necə bilet paylayacağam.,.

-Eh... Mən də deyirəm nədən qorxur. Bilet paylamaqda nə var ki, - deyə Tələt lovğalandı.

Eyvanın pəncərə şüşələrindən biri necə vaxt idi ki, sınmışdı. Uşaqlar qərara gəldilər ki, sınıq pəncərə gözünün qabağında İradə əyləşib bilet paylasın. İradə biletləri axşamdan hazırlamışdı. O, ağ dəftər varaqlarını qatlayıb kəsmiş, üstünə cürbəcür rəngli şəkillər çəkmişdi.

Tələt eyvanın qarısında durub biletləri yoxlayacaq idi. Yerdə qalan uşaqlar da hərə bir stul, kətil daşıyıb gətirməli idilər ki, tamaşaçılar otursun.

Kazım bütün günü qəzetdən özünə paltar kəsib düzəldirdi. Amma əyninə geyinən kimi cırılırdı. Axırda yenə atasının pejamasını geyindi. Anasının qırmızı şifon ləçəyini qalstuk kimi boynuna bağladı. Ayna qabağında durub özünə baxdı...

Yox, o, Pavlikə oxşamırdı.

Qapı döyüldü, Tahirənin səsi eşidildi:

-Kazım, ay Kazım bir eyvana çıx. Kazım çıxdı. Uşaqlar gətirdikləri xırda kətilləri cərgə ilə düzmüşdü. Döşəkağından pərdə asılmışdı. İradə pəncərənin qabağında əyləşmiş, tamaşaçılara bilet paylayırdı. Tamaşaçılar biletlərini qapıda durmuş Tələtə göstərib içəri keçirdilər. Yaşar da uşaqları qabaq cərgədə, xırda kətillərin üstündə, böyükləri isə dalda əyləşdirirdi ki, hamı səhnəni yaxşı görsün.

Tamaşaçıların arasında ata-analar da var idi. Cabbar əmi də burada idi. Onlar uşaqların tamaşa göstərəcəklərini bilib gəlmişdilər.

Birdən pərdənin dalından zınqrov səsi eşidildi.

-Cing, cing, cing... ggg...

Bu zınqrovu Kazım Fatma nənənin düyüncəsindən tapıb gətirmişdi.Kazım qapılarının üstündəki işığı söndürdü. Pərdə qaldırıldı. Balaca cib fanarı ilə işıqlandırılmış səhnədə bir neçə kölgə göründü. Bunlar Pavlik Morozovun babası və onun qolçomaq dostları idi. Uşaqlar baba rolunda balaca boylu, kök Tələti tanıdılar. Qolçomaqlar danışırdılar, onlar hökumət taxılını necə gizlətmək, xalqı ac qoyub narazı salmaq üçün tədbir tökürdülər. İndi səhnəyə Pavlik - Kazım çıxmalı idi.

-Kazım, ay Kazım tez ol səhnəyə çıx, - deyə pərdə arxasında, Pavlikin anası kimi geyinmiş Tahirə Kazımova xəbərdarlıq etdi. Kazım tələsik səhnəyə atıldı. Tamaşaçılar onu pejamada görcək gülüşdülər. Kazım bütün öyrəndiklərini

yadından çıxartdı. Durduğu yerdən tərpənə bilmədi. Elə bil əli-ayağı, dili-ağzı hamısı tutulmuşdu.

Pərdənin dalından Tahirənin səsi eşidilirdi:

-Kazım, danış da, ey...

Ancaq Kazım səhnənin ortasında heykəl kimi dayanmış, fikirləşirdi:

-Gör ha, Pavlik düşmənlərlə vuruşmuşdu. Canından keçmişdi. Amma mən... - O, dərindən içini çəkdi. Çiyinlərini yığdı. Boynunu qüssə ilə çiyninə əyib tamaşaçılara baxdı. Bir neçə dəqiqə də keçsə idi yəqin ki, pərtliyindən ağlayacaqdı. Elə bu zaman Cabbar əminin yanında əyləşmiş qardaşı Kazımı dardan qurtardı. O, tez səhnəyə gəldi və Pavlikin rolunda oynadı. O, elə gözəl, elə yaxşı oynayırdı ki, elə bil bu oğlan Kazımın qardaşı deyil, elə Pavlikin özüdür.

Kazım səhnənin bir küncündə durmuşdu. Heyrətindən ağzı açıla qalmışdı. O, özü haqqında fikirləşirdi. Fikirləşirdi ki:

-Mən indi Pavlik ola bilmədim, axı Pavlik olmaq asan iş deyil. Amma özümə söz verirəm ki, böyüyəndə Pavlik kimi pioner olacağam.

Pərdə örtüldü. Hamı əl çaldı. Kazım qardaşı ilə pərdənin qabağına çıxdı. Qardaşını bərk-bərk qucaqlayıb, sinəsinə sıxdı.

-Sağ ol Pavlik, sağ ol, - dedi.

Tamaşaçılar əl çaldı. Kazım da qardaşını buraxıb üzünü tamaşaçılara tutdu. Əlini sinəsinə qoyub, onlara baş əydi.

Cabbar əminin Kazımın hərəkətinə yaman gülməyi tutdu. O, ayağa qalxıb uşaqların başı üstündən: •

-Sən də çox sağ ol, cırtdan, - sonra göstərici barmağını havada yelləyib: - Görərsiniz, - dedi, - bu Kazım böyük artist olacaq!

Kim bilir, bəlkə də Cabbar əmi haqlı idi.



## MƏN DƏ OYNAMAQ İSTƏYİRƏM

Yayda Nailəgil bağa köçdülər. O, özü ilə bərabər Xallını və Yumrunu da apardı. Yaraşıqlı olsunlar deyə Xallının boynuna çəhrayı rəngində lent bağlamışdı. Yumrunun isə tüklərini qırxıb bir balaca quyruğunda qotaz kimi saxlamışdı. Bağda Nailə hara getsə idi, Xallı evdə qalardı, Yumru isə quyruğunu yellədə-yellədə Nailənin dalınca gedərdi. Bir dəfə uşaqlar gizlənpaç oynayırdılar. Elmira üzünü divara söykəyib, gözlərini yumdu. Uşaqlar isə qaçıb hərəsi bir yerdə gizləndi. Nailə də özünə ən çətin bir yer tapdı. O, təzə təndirə girib gizləndi. Amma Elmira gözünü açan kimi təndirin yanına gəldi, içəri baxdı, qaçıb əlini divara döyə-döyə: ,

-Gördüm, Nailə, - çığırdı.

Sonra Elmiranı, Eldarı, Faiqi, Rüstəmi axtarıb tapdı. Amma axırda Əşrəf gəlib əlini Elmiradan əvvəl divara döyüb:

-Hamının əvəzinə, - çığırdı.

Elmira yenidən üzünü divara söykədi. Gözlərini yumdu. Uşaqlar hərə bir yerdə gizləndi. Nailə də fikirləşdi ki, bu dəfə elə yerdə gizlənəcək ki, Elmira onu axşama qədər axtarsa da tapmasın. O, üzüm əzilən axurun içinə girib gizləndi.

Elmira gözünü açan kimi yüyürüb düz axurun qabağına gəldi və:

-Nailə, gördüm, - deyib Nailədən əvvəl qaçıb əlini divara döydü. Sonra o bir-bir bütün uşaqları axtardı, amma yenə də Əşrəf gəlib Elmiradan əvvəl əlini divara döydü və:

-Hamının əvəzinə, - çığırdı.

Üçüncü dəfə də Elmira gözünü yumdu.

Uşaqlar hərə bir yerdə gizləndi, Nailə də gedib əncir ağacına dırmaşdı.

-Hə, indi Elmira lap sabaha qədər də axtarsa, məni tara bilməyəcək, - fikirləşdi. Yerini rahatlamaq istəyirdi ki, birdən Elmiranın səsini eşitdi:

-Nailə, gördüm, gördüm, odu əncir ağacındasan.

Nailəni fikir götürdü.

-Axı bu Elmira nə üçün həmişə məni birinci tapır?!

O, partləşdi. Bu vaxt Yumru qotaza oxşar quyruğunu o tərəf, bu tərəfə yelləunder, təndirin qabağında, axurun yanında olduğu kimi, indi də ağacın altında durmuşdu. Özü də dilini çıxardıb ləhliyirdi. Pəncələrini qaldıraraq, istəkli sahibi Nailənin yanına, ağaca qalxmağa can atırdı. Bunu görən Nailəyə elə bil kimsə dedi ki:

-Sənin yerini Elmiraya Yumru bildirir də...

Nailənin yumruya bərk acığı tutdu:

-Bundan sonra bir də dalımca qaçma, - deyə ona acıqlandı, - bildin!

Yumru günahkarcasına Nailəyə baxıb zingildədi. Elə bil o:

-Axı mən də oynamaq istəyirəm, - deyirdi.



## LALƏNİN MƏKTƏBİ

Lalə uşaq bağçasından gələn kimi bacısı ona şəkilli kitab və rəngbərəng karandaşlar bağışladı. Lalə onları görüb çox sevindi. Onları yoldaşlarına göstərmək üçün tələsik həyətə qaçdı.

-Uşaqlar, uşaqlar, bura gəlin, mənim şəkilli kitabım, rəngli karandaşlarım var.

Uşaqlar Laləni dövrəyə aldılar. Kitabı vərəqləyib baxdılar. Şəkillər onların çox xoşuna gəldi. Hələ karandaşları demirəm, elə gözəl rəngləri vardı ki: qırmızı, abı, yaşıl, sarı...

Birdən Lalə:

-Aha, uşaqlar, gəlin məktəb-məktəb oynayaq, - dedi.

Uşaqlar Lalənin fikrini bəyəndilər. Axı məktəbə getmək onların çoxdankı arzuları idi. Amma nə olsun ki, hələ çox balaca idilər.

-Oynayaq, oynayaq! - deyə uşaqlar qışqırdılar. Sonra hərə öz evinə qaçıb kitab, dəftər, karandaş gətirdi. Laləni də müəllimə seçdilər. Lalə bu işdən çox razı qaldı. Çünki müəlliməlik onun ən böyük arzusu idi.

Bir dəfə Lalə ikinci sinifdə oxuyan bacısı ilə məktəbə getmişdi. Məktəb onun o qədər xoşuna gəlmişdi ki, o, böyük, işıqlı otaqlarda cərgə ilə oturmuş uşaqlara tamaşa etməkdən doymurdu. Hələ cavan müəllimi görəydiniz. O, əlindəki kitabdan

uşaqlar üçün maraqlı bir hekayə oxuyurdu. Lalə gözünü müəllimdən ayıra bilmirdi. Onun bütün hərəkətlərinə diqqətlə baxırdı.

Ertəsi gün Lalə yenə də bacısı ilə məktəbə getmək istədi.

Amma bacısı ona dedi:

-Hələ balacasan. Bax elə ki, başın mənim çiynimə çatdı. Onda anam səni məktəbə yazdıracaq.

Lalə bacısının cavabından narazı qaldı.

Amma indi... indi uşaqlar onu özlərinə müəllimə seçmişdilər.

Lalə bacısının müəllimi kimi:

-Uşaqlar, oturun, - dedi.

Uşaqlar, əyləşmək üçün yer axtardılar.

-Bəs harda oturaq?

-Doğrudan biz heç bu haqda fikirləşməməşik. - Birdən uşaqların arasından nazik bir səs eşidildi.

-Müəllimə, bax burada. Pilləkənlərin üstündə otursaq yaxşı olar.

Uşaqlar dönüb Əzizə baxdılar. O, pilləkəndə oturmuş, atasının köhnə, lazımsız portfelini isə dizlərinin üstünə qoymuşdu.

Uşaqlar da Əziz kimi pilləkənlərin üstündə cərgə ilə iki-iki əyləşdilər.

Lalə bacısının müəllimi kimi əlindəki şəkilli kitabı açdı və üzünü uşaqlara tutub:

-Hə, uşaqlar, kim oxumaq istəyir, - deyə soruşdu.

Hamı əlini qaldırdı. Birdən Əziz yerindən qalxdı və:

-Müəllimə, müəllimə, ver mən oxuyum! - dedi.

Uşaqlar təəccüblə Əzizə baxdılar. Kimsə:

-Niyə qışqırırsan, əlini qaldır da, - deyə pıçıldadı.

Lalə kitabı Əzizə verdi:

Əziz qaşlarını çatdı, diqqətlə kitabdakı şəkillərə baxıb oxuyan adamlar kimi dodaqlarını tərpətdi.

Başına qırmızı ipək lent bağlamış Elmira dedi:

-Əziz, bərkdən oxu, biz də eşidək.

Əziz özünü itirdi. İndi o nə etməli idi. Oxumaq bacarmırdı. Utandığından başını aşağı salıb:

-Axı, mən bərkdən oxuya bilmirəm, - dedi.

Lalə Əzizi çətin vəziyyətdən qurtarmaq üçün kitabı ondan aldı. Vərəqlədi, vərəqlədi, Şaxta babanın şəklini görən kimi uşaq bağçasında müəllimməsindən öyrəndiyi «Şaxta baba» şerini uca səslə əzbərdən oxumağa başladı. Qalan uşaqlar da Laləyə qoşuldular. Sonra onlar «Bahar gəlir», «Cücələrim», «Tənbəl uşaq» şerlərini də oxudular.

Şerlər Əzizin o qədər xoşuna gəldi ki, o, gözaltı uşaqlara baxdı.

-Bunlara bax, cırtdan boyda boyları var, gör nə yaxşı oxuyurlar, - deyə öz-özünə fikirləşdi.

Yoldaşlarından dala qaldığını görüb yaman pərt oldu.

Axşam üstü anası Əzizin başına gələn əhvalatdan xəbərdar oldu və sevimli oğlunun saçını tumarlayaraq dedi:

-Oğlum, sən çox ağıllısan, amma tənbəlsən. Sənin yoldaşların səhər tezdən yuxudan durub uşaq bağçasına gedir, orada müəllimələrindən maraqlı oyunlar, gözəl nəğmələr öyrənirlər.

Əziz diqqətlə anasını dinlədi. Ertəsi gün o, yuxudan çox tez durdu. Əl-üzünü yudu, təmiz palmar geyindi və anası ilə birlikdə uşaq bağçasına getdi.



## YEDDİNCİ QARDAŞ

Adilgilin ailəsində bir oğlan anadan olmuşdu. Onu yeni alınmış çarpayıda uzandırmışdılar. Uşaqlar bu balaca, gəlinciyə oxşayan körpənin başına yığışmışdılar. Maraqla onun nazik qollarına, xırda əllərinə baxırdılar.

-Anacan, balaca oğlanın adı nədir?

Ana bir qədər fikirləşdikdən sonra dedi ki, balaca oğlanın adını, gəlin hələlik "Yeddinci qardaş" qoyaq.

Uşaqlar razı oldular. Birdən Adil soruşdu ki: Bəs yeddinci qardaşın sənəti nədir? Böyüyəndə o nə olacaq?

Adilin sualına ananın gülməyi tutdu. Axı dünyada yeməkdən və yatmaqdan başqa heç bir şey başa düşməyən körpənin sənəti nə ola bilərdi?

Ana: - onu siz fikirləşin, - dedi və məhəbbətlə uşaqlarına baxdı.

Uşaqlar isə balaca qardaş üçün sənət seçməyə başladılar.

İmran şəkil çəkməyi çox xoşlayırdı. heç kəs onun kimi pişik şəkli çəkə bilməzdi. Doğrudur o, nə qədər çalışırdı dovşan şəkli çəkə bilmirdi. Hər halda o, rəssamlığı bütün sənətlərdən üstün tuturdu. Yeddinci qardaşın da rəssam olmasını arzulayırdı.

Vaqifə görə şofer olub, qəşəng maşınları idarə etmək hər şeydən artıqdı. O, maşın görəndə gözdən itənə qədər onun dalınca baxıb: “Bu pobedadır, bu isə moskviç, bax yük maşını keçdi, bəs bu taksilər hara tələsir, hələ zilə bax, volqa hamısından qəşəng və yaxşıdır. Gör necə də sakit gedir, heç səsi də çıxmır”, - deyə fikirləşirdi. Yeddinci qardaş üçün şoferliyin daha yaxşı olduğunu bildirməyə çalışırdı.

Elçin mühəndis olacaqdı. O, gah, rəngbərəng kubiklərdən birmərtəbəli, ikimərtəbəli, hətta üçmərtəbəli evlər tikir, gah taxta yonub, pilləkən qayırır, gah da spiçka qutularını bir-birinə bitişdirib, körpü, qatar qayırırdı. O, mütləq mühəndis olmaq istəyirdi. Yeddinci qardaşı da bu işdə özünə köməkçi etmək fikrində idi.

Kazım isə dənizi çox sevirdi. Xüsusilə balaca dənizçiləri görəndə gözlərini onlardan çəkə bilməzdi.

-Heyif deyil, görün nə yaxşı geyimləri var. Hələ düymələrinə baxın, gör necə parıldayır. Papaqlarının lentlərinə baxın... Anacan, mənə də lentli paraq al... Mən matros olmaq istəyirəm, - deyir. Yenidən pəncərədən boylanaraq: - Ay aman, hələ görün necə də addımlayırlar. Bir-iki, bir-iki, - deyə o komanda verirdi. Yumruqlarını sallayıb, otaqda o tərəf, bu tərəfə gedirdi.

Balaca Adil özünü böyük adamlar kimi aparırdı. O, çox atılıb-düşməyi, həyətdə qaçmağı, uşaqlarla oynamağı sevməzdi. Onu xəritə üstündəki səyahət hər şeydən çox maraqlandırırdı. O, əlindəki qələmi xəritədə gəzdirərək, qırmızı ulduz işarələri üstündə saxlayıb, qardaşlarına izahat verərdi.

-Bura Bakıdır, bura isə Moskvadır. Bu yay mən Moskvaya gedəcəyəm. Yeddinci qardaşı da özümlə aparacağam. Qoy o, səyahətin nə olduğunu öyrənsin. Səlim isə çox balaca idi. O, hələ sənət seçməyi bacarmırdı.

Ana uşaqlarının arzularını maraqla dinləyib məhəbbətlə həm körpəyə, həm onlara baxaraq:

-Balalarım,- dedi, - sizin hər birinizin seçdiyi sənət yaxşıdır. Yeddinci qardaş isə böyüyəndə özü-özünə sənət seçəcək. Bəlkə o, alim olacaq, bəlkə də yazıçı, bəlkə həkim, ya müəllim, bəlkə bənna, bəlkə də dülgər oldu. Bu sənətlərin hamısı

gözəldir. Hamısı o zaman qiymətlidir ki, sən onu sevəsən, yaxşı öyrənəsən, xalqımıza öz gözəl sənətinlə xeyir verəsən.



## DİLARƏ BAĞA GEDİR

### YOLDA

Dilarənin anası qızına qırmızı çitdən paltar tikdi. Xara parçadan lent kəsib qıraqlarını basdırdı. Sonra Dilarəni yuxudan oyatdı:

-Qızım, yolçu yolda gərəkdir,- dedi: Dur geyin, çayını iç, şofer çoxdan gəlib. Dilarə şoferin adını eşitcək yerindən sıçradı, cəld yuyundu, təzə paltarını geyindi, anası başını daradı, lentini bağladı, sonra çayını tələm-tələsik içib anasından əvvəl pilləkənləri yüyürməcə aşağı düşdü. Maşına yaxınlaşdı və şoferə:

-Salam! - dedi.

-Salam, salam Dilarə, nə qəşəng geyinmisən. əyləş görək, - deyə şofer Dilarəyə yanında yer verdi. Elə ki, maşın hərəkətə gəldi, Dilarə əlini öpüb maşının yanında durmuş anasına uzatdı. Bununla o, demək istəyirdi ki: "Anacan, öpürəm səni".

Maşın həyətdən, tanış küçələrdən keçib şəhərdən çıxdı. Zavodlar arası ilə irəlilədi. Neft mədənlərinə çatdı.

Dilarə başını maşının pəncərəsindən çıxardıb, maraqla tamaşa edirdi. Birdən o, əli ilə uzaqdakı buruqlardan birini göstərib soruşdu:

-Əmican, o nədir orada, təpənin üstündə başını qaldırıb-salır?

Şofer Dilarənin göstərdiyi tərəfə baxdı. Uzaqdakı köhnə buruqların birində, keçmişdən qalmış neft çıxaran nasos görünürdü. Nasos enir, qalxır, elə bil gəlib-gedənə baş endirirdi.

Şoferi gülmək tutdu.

-Dilarə, nasosu deyirsən? Hə... səni salamlayır, deyir ki, ay qız, bizim yerlərə xoş gəlmisən...

Dilarə barmağını dodaqlarına söykədi.

-Gör ha... - deyə pıçıldadı və birdən sevincək əlini havada yelləyib çığırdı:

-Salam, Salam!

## QUML UQDA

Maşın duz yamağı olan Böyükşoru, təyyarə meydanını arxada buraxdı. Hər iki tərəfi üzüm bağları ilə əhatə edilmiş asfaltlı bir yol ilə gedib. Babasının yaşadığı kəndə çatdı.

Şofer maşını kəndin kənarında saxladı.

-Hə, Dilarə, bundan o yana ayaqla gedəcəyik, - dedi və Dilarəni başa saldı ki, qabaqda qum təpələri var, maşını quma salsaq, çıxartmaq çətin olar.

Şoferin sözü ağzından qurtarmamış Dilarə maşından yerə atıldı. Quma bata-bata üzü yuxarı yüyürməyə başladı.

Şofer onu çağırdı:

-Dilarə, dayan, səndəllərini çıxart, rahat yeri, yoxsa yorularsan.

Onlar qum basmış köhnə bir evin divarı üstündə əyləşdilər. Ayaqqabılarını çıxartdılar. Dilarə səndəllərinin içinə dolmuş qumu boşaltdı.

-Əmican, bu qumları nə üçün yollara töküblər? - deyə soruşdu.

Şofer Dilarəni başa saldı ki:

-Qumları kəndə adamlar tökməyib. Dəniz qırağından külək sovurub, gətirib.

Bir azdan onlar ayaqyalın, narın və sərin qumların üstü ilə babanın bağına yollandılar.

## GÖRÜŞ

Babanı cərgə ilə düzülmüş nar ağaclarının yanında gördülər. O, ağacların ətrafındakı kolları qırırdı.

Dilarə babasını çağırdı. Baba belini dikəltdi, səs gələn tərəfə baxdı. Dilarəni daş hasarın dalında, hündür qumun üstündə görcək, əllərini ona tərəf uzatdı:

-Axır ki, babanı yad elədin. Atıl qucağıma görüm.

Dilarə babasının qucağına atıldı. Onlar öpüşüb görüşdülər. Sonra nənə də gəldi.

-Başına dönüm Dilarə, nə yaxşı gəlib çıxdın, yoxsa ürəyim bir tikə olmuşdu. Atan, anan necədir, yəqin şəhər istidir, hə?.. - deyə soruşdu.

Dilarə dedi ki:

-Anam da, atam da lap yaxşıdır. Sizə çox-çox salam göndərdilər.

## Q U Y U

Nənə vedrənin dəstəsinə uzun... uzun bir ip bağlayıb, quyuya sallatdı. Bir azdan su ilə dolmuş vedrəni yavaş-yavaş quyudan çəkdi. Suyu Dilarənin ayaqlarına tökdü:

-Yol gəlmisən, yorulmusan, qoy əl-ayağın bir az sərinləşsin, - dedi.

Quyunun suyu çox soyuq olduğundan Dilarə:

- O... oy... oy, - deyə çığırır, atılıb-düşürdü.

- Dayan görüm, üst-başımı islatdın, - deyə nənə Dilarəni tutub saxladı və yenə onun ayaqlarına su tökdü.

- Nənəcan bu su nə üçün belə soyuqdur, bəyəm quyuya buz tökmüsünüz?

-Ay bala quyuya buz niyə tökürük, bir şey ki, yerin dibindən çıxa, gün görməyə, hava görməyə soyuq olar da.

-Yerin dibidən... Mən yerin dibini görmək istəyirəm, - deyə Dilarə çırpınıb, nənənin əlindən çıxdı. Quyunun yanında yerə sərildi. Qollarını quyunun daşına dirəyib başını içəri sallatdı ki, quyunun dibini görsün. Amma qaranlıqdan başqa

heç bir şey görmədi. Yəni görə də bilməzdi. Nənə bir hay-küy saldı, elə qışqırdı ki, bütün qonşular axışıb həyətə doldular.

Onlar nənəni, Dilarənin qıçlarından bərk-bərk yapışıb çəkdiyini görəndə:
Gör ha... uşaq nə yaxşı quyuya düşməyib. - dedilər.

Nənə saralmışdı, tərləmişdi. O, Dilarəni məzəmmətləyərək deyirdi:

-Quyu sənin üçün oyuncaq-zad deyil ki, əyilib baxırsan. Düşsə idin tikən ələ gəlməzdi.

Baba, şofer də hərə bir yandan Dilarəni danladı. Dilarə özü də nənənin hay-küyündən o qədər qorxmuşdu ki, elə bil onu elə quyudan dartıb çıxartmışdılar. Amma özünü sındırmır. nənəsin günahkarlandırırdı.

-Nə edim, - deyirdi, - nənə dedi su yerin dibindən çıxır, mən də istədim yerin dibini görüm.

-Ay bala, incinarsan, nəsən, yerin dibi sənin nəyinə lazımdır. Elə belə sözdür dedim də.. Onunçun dedim ki biləsən su çox dərindən çıxır, daşlardan süzülüb gəlir. Başa düşdün... Amma bir də quyuya yaxın getsən, göndərəcəyəm şəhərə, eşitdin?! - deyə nənə xəbərdarlıq etdi.

- Eşitdim, - deyə Dilarə içini çəkə-çəkə çavab verdi. Elə bu vaxt adamların arasından bir səs gəldi:

-Bu qız quyuya düşmüşdü?

Dilarə səs gələn tərəfə baxdı. Özündən bir azca hündür bir oğlanın durduğunu gördü. Onun əlində tilova oxşar şeylər vardı. Yəqin quyuya uşaq düşdüyünü eşidib, onları gətirmişdi ki, uşağı quyu dan çıxartsın.

Dilarə təəccüblə bir oğlana, bir də əlindəki çəngəllərə baxdı və fikrə getdi.

-Bəlkə bu oğlan elə bilib mən balığam, nəyəm... Tilovla gəlib. - Sonra dodaqlarını büzüb mızıldandı. - Heç nənə qoydu ki, quyuya düşəm.

TİKAN

Camaat dağılışdı. Baba ilə şofer də Dilarə ilə nənəni həyətdə tək qoyub, harasa getdilər. Dilarə yuyunub qurtardı. Paltarını dəyişdi və yenidən həyətə çıxıb, O tərəf-bu tərəfə boylandı. Baba ilə şoferi ağacların arasında əyilib qalxan gördü. Yüyürüb onların yanına gəldi. Baba qucaq-qucaq otları yığıb, armud ağacının yanında üst-üstə yığır və üstünə də bir daş qoyurdu.

Dilarə xeyli onlara baxdı.

- Siz bu ağacları nə üçün qırıb, xarab edirsiniz... Heyif deyil, - deyə onları məzəmmətlədi.

Baba güldü:

-Ağac harda idi. Bunlar ağac deyil, koldur, - dedi.

-Kol olsun... Gör nə yumşaq yarpaqları var, elə bil məxmərdir, - deyə Dilarə əlini atdı ki, yaşıl iynəli yarraqları olan tikan kolların arasında bozaran yovşanı göstərsin. Tikanlar onun barmaqlarına, əlinin dalına batdı. O: uf... uf... uf... edərək tez əlini çəkdi və altdan-altdan kollara baxdı.

-Gör nə pis xasiyyəti var ha... Yaxına gələn kimi adamı sancır.

Baba ilə şofer şaqqıltı çəkib güldülər. Baba dedi:

-Bu kolların xeyri odur ki, onlardan yaxşı çəpər çəkmək, bir də ocaq qalamaq olar. Əgər onları torpaqdan qopartmasaq, torpağın şirəsini çəkib, meyvə ağaclarını, meynələri qüvvədən salar.

O gündən, Dilarə harda yovşan kolu və tikan görsə idi, qırıb bir-birinin üstünə yığardı. Üstündən də bir daş qoyardı ki, onları külək aparmasın, günəş qurutsun.

## AXŞAM

Günəş evlərin dalında elə gizləndi ki, nar ağaclarının arasından, yalnız qırmızı işığı göründü. Bir azdan bu qırmızılıq da tamam çəkildi. Ətrafı alaqaranlıq bürüdü. Axşam düşdü. Dilarə anasını, evlərini, gur şəhər küçələrini xatırlayıb ağlamağa başladı:

-Ihı... ıhı.. ıhıı... - deyə dodaqlarını büzdü.

Nənəsi Dilarəni əzizlədi:

-Nə olub, ağrın alım, niyə dodaqlarını sallatmısan?

Elə bil Dilarə buna bənd idi. O, ürəkləndi və hönkürtü ilə ağlayıb, çığırmağa başladı.

-Mənə... qarpız... qarpız verin... - dedi. O, anamı istəyirəm deməyə utanırdı. Qorxurdu ki, gülərlər, deyərlər ki:

-Bu yekəlikdə qız da heç anası üçün darıxıb ağlayar!

Amma Dilarə yekə deyildi, həmişə anası ilə bir yerdə olduğundan, ondan ayrı qala bilmirdi. Qarpız sözünü eşitcək, nənə təəccüblə babaya baxdı. Çiyinlərini dartdı, fikirləşdi ki, görəsən bu axşam vaxtı qızın yadına qarpız hardan düşdü. Sonra gülərək dedi:

-Qızım, səhər bostana gedərik, kefin istədiyi qədər sənə qarpız verərəm. Evdəkilər yeyilib, qurtarıb.

Dilarə özünü silkələdi.

-İstəmirəm, istəmirəm, mənə bostan verin, tez, verin. - O, ertədən eşitdiyi sözləri təkrar etməyə, şıltaqlıqla çığırmağa başladı.

Baba və nənə bərkdən gülüşdülər.

-Bala, bostan bəyəm almadır, qarpızdır gəmirib sənə verək. O boyda yeri, necə bura çəkib gətirmək olar. Baba Dilarəni dizlərinin üstünə aldı.

-Bax, qızım, bu gün yıxıl yat. Bir-iki gündən sonra səni kolxozumuzun üzüm bağlarına, bostanına aparacağam, ordan da dənizə gedərik... Yaxşı? İndi dur get evdə, çarpayıda uzan.

Dilarə silkələndi, ağlaya-ağlaya:

-Evi istəmirəm. Sizin eviniz çox qocadır. Mən öz evimizi, şəhəri, oranı istəyirəm, - deyə uzaqdakı kənd qonşularının evlərindən gələn işıqları göstərirdi.

Qoca sözünü eşitcək, baba dərin fikrə getdi. Sonra bir şey xatırlayıb:

-Doğru deyirsən qızım, mən qocayam, bizim bu ev isə məndən də qocadır. Yaxşı, evi istəmirsən, qoy nənən sənin üçün eyvanda, mənim yanımda yer salsın...

## YUXU

Dilarə nənəsinin açıq havada hazırladığı yataqda uzandı. Gözlərini göyə dikib hərəkətsiz qaldı. Nənə isə hərdənbir, gözucu Dilarəyə baxırdı ki, görsün uşaq yuxuya gedib, ya yox, amma görürdü yox, hələ gözləri açıqdır.

-Qızım nəyə baxırsan, ulduzları sayırsan?

-Yox... Huşa gedirəm, - deyə Dilarə gözlərini yumub-açdı.

-Yaxşı, get huşa... - deyə nənə gülümsündü.

Amma çox keçdi... Dilarə huşa gedə bilmədi. Nənənin ürəyi lap sıxıldı.

“Uşaqcığaz ata-anasının xiffətini çəkir”, - deyə düşündü.

-Dilarə, qızım, saymaq bacarırsan?

Dilarə başının hərəkəti ilə bildirdi ki, bacarır.

-Lap yaxşı, bir o göydə ki, ulduzları say görüm. Sayıb qurtaranda mənə deyərsən, yaxşı?

-Yaxşı...

Dilarə barmağını uzadaraq ulduzları bir-bir saymağa başladı.

-Bir, iki, üç, dörd, beş. Bir, iki, üç, dörd, beş Bir, iki, üç, dörd, beş...

Dilarə ancaq beşə qədər saymaq bacardığından beş ulduz sayıb, o birilərini yenidən, birdən saymağa başlayırdı. O, saydı, saydı... Amma nə ulduzları sayıb qurtardı... Nə də yuxuya nə vaxt getdiyindən xəbər tutdu.

## SƏHƏR

Nənə Dilarəni lap sübhdən yuxudan oyatdı. Dilarə yatağında o tərəfə gərnəşdi, bu tərəfə gərnəşdi. Gözlərini ovuşdurdu. Axırda tənbəl-tənbəl yerindən durdu.

Qırmızı çit paltarını geyindi. Başını daradı. Lenti gətirdi ki, başına bağlasın, birdən yenə anasını xatırladı.

-Bəs lentimi kim bağlayacaq? - deyə soruşdu.

Nənə lenti Dilarədən aldı:

-Ver, mən bağlayım.

-Yox... istəmirəm, sən pis bağlayırsan, gedək şəhərə anam bağlasın.

-Eh... ay Dilarə, lent bağlamaq böyük şey deyil ki, qızım, ver bura, bir lentdən ötrü şəhərə gedək? - deyə nənə Dilarənin saçını daradı və səliqə ilə lenti bağladı.

-İndi, qaç qum üstə, havan bir az dəyişsin. Yuxun qaçsın. - Dilarə həyətə çıxdı. Əncir ağacında təzəcə saralan bir-iki əncir tapıb, qopartdı. Aradan iki böldü və hissə-hissə ağzına qoyub yedi. Ona elə gəldi ki, əncir şokoladdan da, perojnıdan da ləzzətlidir. Sonra, nar ağacının dibinə tökülmüş bir neçə qırmızı gül topladı. Babanın üst-üstə qaladığı yovşan və tikan kollarının üstünə qoydu.

Öz-özünə:

-Heyif, gör nə gözəl güllərdir, amma ağacın kücünü alır, - dedi. Axı Dilarə nə bilə idi ki, bu güllər nar ağacının gülləridir. O, nə bilə idi ki, gecədən əsən xəzri küləyi, onları qırıb, ağacın dibinə tökməsə idi, bu güllərin hər biri, iri, turşməzə, qırmızı nar olacaq idi.

Dilarə gözlərini nar güllərindən ayırmamışdı ki, birdən elə bil lap qulağının dibində, kimsə:

-Kəpənək; kəpənək, - çığırdı.

Dilarə üst-üstə qalanmış alaq kollarının dalından boylandı. Kolun o biri tərəfində, əynində göy, qolsuz mayka, abı qısa tuman olan bir oğlanın durduğunu gördü. Oğlan təəccüblə Dilarəyə baxırdı. Demə o, uzaqdan Dilarənin lentini kəpənəyə oxşatmışdı. Axı Elxan bağa gələn gündən cürbəcür cücüləri, rəngbərəng kərənəkləri yığıb qutuya düzürdü ki, şəhərə gedəndə həyətdəki yoldaşlarına göstərsin. Amma o kəpənək bildiyi lenti görcək təəccüblə pıçıldadı:

-Ay aman... Belə də lent bağlayarlar? - Bunu deyib qumlu təpədən üzü aşağı mayallaq aşdı. Heyva ağacının altında oturub, balaca qutusundakı cücülərinə baxdı... Onun qutusunda hər rəng desən kəpənək vardı: sarı, xal-xal... İpək qanadlı

kəpənəklərə baxdıqca adamın ürəyi açılırdı... Bircə qırmızı qanadlı kəpənəyi yoxdu... o, təəssüflə bir də Dilarənin qırmızı lentinə baxdı, fikirləşdi ki, kaş o qızın başındakı lent dönüb kəpənək ola idi...

## TƏKLİK

Elxan Dilarəni quyu əhvalatı olanda görmüşdü. O, bu lentli qız şəhərdən təzə gəlib, yəqin darıxır deyə fikirləşdi və Dilarəni oynamağa çağırdı. Amma Dilarə gözucu Elxana baxdı... Dodaqlarını büzdü:

- İstəmirəm, lentim xarab olar, -  dedi.

O, indi başa düşmüşdü ki, heç anası nənə kimi gözəl lent bağlaya bilməz.

-İstəmə... Otur yerində darıxa-darıxa... - deyə Elxan çiynini atdı. Elə bu zaman qonşu həyətlərdən bir dəstə qız, gülə-gülə qum təpəsinin üstünə gəldi. Onlar Dilarəni görcək, dövrə vurub oturdular. Qızlar maraqla təzə bağ qonşularına baxır, gülümsünür, onunla danışmağa söz axtarırdılar. Dilarə də qızları görcək xeyli sevindi və ağacın altında tək oturmuş Elxana acıq vermək istədi.

-Ey oğlan, qızları görürsən?!

-Hə... görürəm nə olsun?!

Dilarə əda ilə dedi:

-Bunlar hamısı mənim yoldaşlarımdır...

Elxan təəccüblə gah qızlara, gah Dilarəyə baxdı:

-Nə olsun ki...-dedi. Çiynini yığdı. Əlindəki qutunun qapağını açdı və topladığı cücülərə baxdı.

Qızlar da oturdular, oturdular. Bir yerdə oturmaqdan darıxdılar. Axı onlar atılıb-düşmək, qum aşağı mayallaq aşmaq, torpaqdan hamam, ev tikmək, külək tökmüş meyvə güllərindən bağ-bağça salmaq istəyirdilər. Dilarə isə oturduğu yerdən tərpənmirdi. Qorxurdu ki, lenti xarab olar. Qızlar çox oturdular, çox gözlədilər, qum aşağı gillənə-gillənə heyva ağacının altına, Elxanın yanına gəldilər.

## BİR OVUC TORPAQ

Dilarə tək qaldı. Darıxdı. O bir ovuç torpaq gətirib qızlara atdı.

Qızlardan biri üzünə, başına sərilmiş torpağı yeyin-yeyin çırpıb, təmizlədi və Dilarəni məzəmmətləyərək:

-Nə pis qızsan, bilmirsən ki, adamın başına torpaq atmazlar. Bəlkə gözumə tökülə idi. Axı adamın gözləri ağrıyar, - dedi.

Dilarə pərt oldu. Durub evlərinə yollandı. Bir-birinin üstünə qalanmış hündür, daş hasarın yanından keçəndə kimsə ovuc-ovuc torpağı onun başına, üzünə, çiyinlərinə tullamağa başladı.

Dilarə elə bildi ki, qızlar acıqlarından ona torpaq atırlar. Özü də bir nəfər yox, hamısı bir yerdə. O, üz-gözünün tozunu çırpa-çırpa:

-Heç adamın da başına torpaq atarlar, axı ağzım-burnum doldu... u... u... - deyə deyinməyə başladı. Ağlaya-ağlaya nənəsinin yanına şikayətə getdi Nənə əhvalatı eşitcək, həyətə çıxdı. Boylandı ki,görsün uşağın başına qum atan kimdir. Gördü hasarın o tayında bir dəstə toyuq-cücə eşələnir. Dilarənin başına da torpaq sovuran elə toyuq-cücə imiş.

Nənə əlini havada yellədi:

-Kiş, kiş, kiş, - gedin buradan, qızıma bir də torpaq atmayın, - deyə toyuqları qovladı. Dilarəni isə üzüm bağlarına tərəf gətirib uzaqda kəpənək tutan uşaqların yanına göndərdi.

## KƏPƏNƏK

Dilarə əvvəl uşaqlara yanaşmır, qəribsinirdi. Onların dalınca addım-addım gəzirdi. Uşaqlar əyilib-qalxır, dozanqurdu, qırxayaq, çəyirtgə, kəpənək, parəbizən tuturdular. Dilarə də əyilib-qalxır cücü axtarırdı. Birdən elə bil lap ayağının altından nə isə atılıb, yaxındakı tikan kollarından birinin içində gizləndi. Dilarə əyilib, yerdən bir ovuc torpaq götürdü və kola atdı. Kolların arasından qırmızı qanadlı bir şey uçdu-uçdu, yenə qonub qanadlarını yığdı, torpağın üstündə görünməz oldu.

Dilarə pəncələri üstündə yeridi, üsulluca torpağa diz vurdu və ovcunu yumurlayıb, torpaqdan seçilməyən cücünün üstünə qoydu. Onu tutdu. Sevincək halda uşaqların yanına qaçdı.

-Kəpənək, kəpənək, - çığırdı, - qanadları qırmızı kəpənək. Baxanda adamın ürəyi gedir, - deyə tövşüyə-tövşüyə ovcunu Elxana uzatdı. Elxan "qırmızı kərənək" sözünü eşitcək yavaş-yavaş Dilarənin ovcunu açdı, ucadan gülərək:

-Bu ki, çəyirtgədir, - dedi.

Çəyirtgəni qutuya, cücülərin yanına qoydu. Çəyirtkə xeyli atıldı, düşdü, axırda yorulub, qaranlıq və darısqal qutuda özünə rahat yer tapıb dayandı.

Dilarə isə yenə pərt oldu. Axı o ömründə heç kəpənək görməmişdi.

## BAĞ YOYU

Bir dəfə səhər tezdən baba Dilarəni yuxudan oyatdı.

-Dilarə, dur geyin, kolxoz bağlarına gedəcəyik.

-Axı mən yatmaq istəyirəm.

-Qalx, qalx əl-üzünü soyuq su ilə yu, yuxun qaçsın, - deyə baba təkid etdi.

Dilarə gərnəşdi. Əzildi. Büzüldü. Gözlərini ovuşdura-ovuşdura yatağından qalxdı. Paltarını geyindi. Nənəsi yenə onun bantını bağladı, əlinə də balaca bir səbət verdi.

-Şor balıqla çörəkdir, acıyanda üzümlə yeyərsiniz, - dedi.

Onlar yola çıxdılar. Qonşu həyətlərdəki qızlar, oğlanlar Dilarəgilin dalınca yüyürdülər: Elxan əlini şeypur kimi yumurlayıb ağzına tutdu:

-Di... la... rə...ə... - deyə çığırdı.

Dilarə çiyni üstündən səs gələn tərəfə baxdı və Elxanı öz eyvanlarından onu çağırdığını gördü. Dilarə səbəti babanın əlinə verdi və Elxangilin həyətinə qaçdı.

-Elxan, sən bizimlə getmirsən? - soruşdu.

-Üzüm yığmağa gedirsiz?

-Hə... gedək də!

-Gedək, dayan bu saat, - deyə Elxan otağa qaçdı. Bir xeyli boş qutu, bir at nalı və bir də oyuncaq tüfəngini götürüb, Dilarənin yanına gəldi. Onlar qabaqda, babanın dalınca gedən oğlan və qızlara qoşuldular.

Böyük bir dəstə, narın qumlu yolları, qəbristanlığı keçdi. Yol boyu Elxan daş hasarların oyuqlarını axtarır, xırda fındıq boyda kərtənkələ yumurtaları yığaraq qutuya qoyurdu.

Dilarə isə addım-addım onun dalınca gedir, Elxan əyiləndə əyilir, divar oyuqlarına, qarınca yuvalarına baxırdı. Kəpənək, çəyirtgə tuturdu. Onun ayaqlarına gah tikan batır, gah kol ilişir,gah da ayağını daş əzirdi. O, ufuldayır, ayağının birini qaldırıb, o birini qoyurdu. Bağ yolu nə qədər maraqlı olsa da, Dilarə hələ ona adət etmədiyindən artıq yorulmuşdu. Baba, Dilarəni çiyninə qaldırdı və arxada gələn uşaqlara xəbərdarlıq etdi ki, tələsmək lazımdır, yoxsa bir azdan gün qalxar, torpaq qızar, getmək çətin olar.

Kolxozun üzüm bağları kənddən çox uzaqda idi. Ora ayaqla getmək üçün xeyli vaxt lazımdı. Amma gömgöy bağların, günəbaxan, qarğıdalı əkilmiş, həyətlərin, ovdanların arası ilə keçərkən, adam yolun uzaqlığını hiss etmirdi.

Elxan qarğıdan qayırdığı atın üstünə minib:

-Biyə... biyə... - deyə hamıdan qabaqda çağırdı. Qızlar da onun dalınca qaçırdılar. Hamıdan axırda isə baba gedir, babanın çiynində də Dilarə oturaraq ətrafı maraqla seyr edirdi. O, hər yeri hamıdan əvvəl görürdü. Birdən bağların arxasından mavi dəniz göründü. Dilarə həyəcanla:

-Dəniz, dəniz - deyə çığırdı və çimməyə tələsərək babanın çiynindən düşmək istədi. Amma baba ona dedi ki:

-Bir dayan, dəniz göründüyü kimi yaxında deyil, azı bir saat yol getməliyik ki, dənizə çataq.

Dilarə gözlərini dənizdən ayırmırdı. Ona elə gəlirdi ki, onlar, getdikcə, dəniz də gedir və onlar nəinki bir saata, heç bütün günü getsə idilər, yenə dənizə çata bilməyəcəkdilər.

Amma dəniz heç yerindən də tərpənmirdi.

## DAŞ YATAĞI

Bir xeyli getdikdən sonra Dilarə kəşfiyyatçı saldat kimi:

-Asfalt, asfalt, - deyə çığırdı.

Uşaqlar təəccüblə Dilarəyə baxdılar. Elxan fikirləşdi ki:

-Görəsən bu lentli qız asfaltı harda gördü.

-Burda asfalt yoxdur. Yəqin daharlığı görmüsən, - deyə Elxan Dilarəni başa salmaq istədi.

-Daharlıq, daharlıq nədir? - deyə Dilarə təəccüblə soruşdu.

Baba Dilarəni yerə qoydu. Qoca bir tut ağacının altında, bir daşın üstündə əyləşdi. Papiros yandırıb dedi:

-Qızım, daharlıq, daşlıq deməkdir.

Uşaqlar babanı dövrəyə aldılar.Dilarə babasının yanında, Elxan da Dilarənin yanında oturdu. Baba papirosu bir neçə dəfə tüstülətdi, sonra əlini uzadaraq daşlığı göstərdi.

-Baxın, gördüyünüz bu yerlərdə böyük daş xəzinəsi vardır. Bu daşlar mərmər kimi möhkəmdir. Sizin şəhərdə yaşadığınız hündür ağ daşlı binalar bizim kəndlərin daşları ilə tikilir.

Dilarə maraqla daşlığa baxırdı. Uşaqlar bir-birinin dalınca babaya cürbəcür suallar verməyə başladılar.

-Baba, nə üçün bu qədər daş ayaq altında qalıb xarab olur, hə?

-Nə üçün bu daşlarlar özünüzə təzə ev tikmirsiniz?

Baba bütün suallara ağır-ağır cavab verirdi.

-Doğru deyirsiniz balalarım. Tikəcəyik, niyə tikmirik? Ev də tikəcəyik, bu qumlu yollara şose də, asfalt da salacağıq. Kəndimiz o qədər abadlaşacaq ki, o qədər böyüyəcək ki, gəlib lap sizin şəhərə çatacaq.

-Bəs nə vaxt? - deyə bayaqdan bəri ağzını açıb, maraqla babanı dinləyən Dilarə birdən soruşdu.

O, özü öz səsindən az qala diksinəcək idi. Səsi yaman bərk çıxmışdı.

Baba yenə papirosunu tüstülətdi və fikrə gedərək:

-Bu yaxınlarda, yəqin ki, lap bu günlərdə mühəndislər gəlib, boz qayaların üstündə daş karxanası salacaqlar, - dedi.

## BİR ƏTƏK DAŞ

Dilarə çox yaxşı bilirdi ki, onun atası mühəndisdir. Onu da yaxşı bilirdi ki, şəhər evlərinin tikilməsi üçün onun atasının mühəndis olduğu daş karxanasından daşlar çıxarılıb tikinti işinə verilir. O, hətta atası ilə bərabər karxanaya da getmişdi. İri qayaların necə partladığını uzaqdan görmüşdü. İri, gurultu ilə işləyən iti dişli dəyirmi mişarların necə hərləndiyini, nahamar daşların bir ölçüdə necə kəsildiyini, necə yonulub ağarıldığını gözləri ilə görmüşdü. Onu da yaxşı bilirdi ki, atası daş yamağı olan yerlərin hamısını çox yaxşı tanıyır. Bəs nə üçün o, babanın kəndində karxana salmır. Yəqin bu yerlərdən xəbəri yoxdur.

O, atasını necə olursa-olsun bu işdən xəbərdar etməli idi...

Baba ayağa qalxdı.

Yolçu yolda gərəkdir, - dedi və yola düzəldi. Uşaqlar da onun yanınca atıla-atıla gedirdilər. Onlar uzun illərdən bəri yağan yağışların iz saldığı, qara xallı, mamırlı daharlığın üstü ilə irəliləyir, üzüm bağlarına tələsirdilər. Yalnız Dilarə uşaqların arasında deyildi. Baba çönüb arxaya baxanda nəvəsinin onlardan xeyli dala qaldığını gördü. Onun ətəyi daşla dolu idi və qız güclə gəlirdi.

Baba ayaq saxladı:

-Ay qız o ətəyindəki nədir?

Dilarə cavab verdi ki:

-Daşdır, atama göstərməyə aparacağam, qoy bilsin ki, babanın kəndində necə daşlar var.

Baba gülümsündü. Başını tərpətdi:

-Bala, tök daşı ətəyindən, - dedi, - şəhərə gedəndə apararsan.

Dilarə daşları yerə tökdü. Yüyürə-yüyürə babasının yanına getdi.

Amma günlər gəlib keçdi. Dilarə şəhərə yola düşəndə özü ilə bərabər bir ətək daş yox, bir səbət əncir, üzüm apardı. Çünki babanın söhbətindən bir neçə gün sonra, boz qayalıqdan, hər gecə daş yonan, mişarların xırıltısı eşidilirdi.

## ÜZÜM BAĞLARINDA

Onlar yenidən qumluğa düşdülər. Üzüm bağlarına çatdılar. Divar dibi gedərək şax-budaqları papaq kimi yerə enmiş qaysı ağacının altında əyləşdilər.

Hə... Siz bir az burda dincəlin. Mən bir bağı gözdən keçirdim, - deyə baba əlindəki səbəti ağacın kötüyünə söykədi və uşaqlardan uzaqlaşdı.

Baba çox qoca idi, amma sağlam və işgüzar kişi idi. O, bir-bir meynələri yoxladı. Gedib uzaqlarda üzüm dərən kolxozçu yoldaşları ilə nə isə danışdı. Yenidən qayıdıb, uşaqların yanına gəldi. Baba torpağın üstünə iri giş döşədi. Əncir ağaclarının altından bir-bir, iki-iki iri yastı yeşikləri daşıyıb gətirdi.

Elxan dedi ki:

-Baba, qoy mən də yeşik daşıyım.

-Mən də... mən də... - deyə uşaqlar çığırışdılar.

Əvvəl baba razılıq vermək istəmədi. - Yorularlar, - deyə fikirləşdi. Amma sonra razı oldu.

-Yaxşı, hasarın dibi ilə gedib-gəlin, üzümlüyə girməyin, - dedi.

-Urra... a... a... - deyə uşaqlar çığırışdılar. Bir-birindən tez yeşikləri daşımaq üçün yüyürüşdülər.

Bir tərəfdən yeşiklər, bir tərəfdən kolxozçuların səbət-səbət, vedrə-vedrə daşıyıb gətirdikləri üzümlər ağacın altına yığıldı.

Baba bir-bir yeşiklərin altına meynə yarpağı düzdü. Sonra iri giləli salxımları gətirib, gözdən keçirtdi. Əzilmiş və çürümüş tək-tək üzüm gilələrini salxımdan qopartdı ki, çürüklər, saf gilələri də çürüdüb xarab etməsin.

Dilarə babasının yanında durub, üzüm dolu yeşiklərə baxa- baxa fikirləşirdi ki:

-Heç kəs onun babası kimi, belə gözəl üzüm düzə bilməz... Amma heç başa düşmürdü ki, hər üzüm cərgəsindən sonra, baba nə üçün üzümlərin üstündən meynə yarpağı döşəyir.

Birdən, Elxan onun qolundan çəkdi.

-Dilarə... gəl biz də özümüz üçün üzümdən yük tutaq.

-Yük... k... - deyə Dilarə təəccüblə Elxana baxdı.

-Hə... hə... gəl tutaq.

Dilarə uşaqların yanına gəldi. Torpağa diz vurub oturdu. Elxan boş qutularını yerə qoydu. Qızlar qutuları cərgə ilə düzdülər. Bir salxım üzüm gilələyib Elxana verdilər. Elxan da bu gilələri Dilarənin babası kimi səliqə ilə qutunun içinə düzdü. Üstündən də qaysı ağacının yarpağını qoydu.

Dilarə təəccüblə Elxana baxıb özlüyündə fikirləşdi: “Gör gilələri necə səliqə ilə düzür” sonra:

-Elxan, bəs bu yarpaqları nə üçün üzümlərin üstünə düzürsən? - soruşdu.

Elxan köhnə bağbanlar kimi özünü öydü və dedi:

-Bəs necə... Əgər bu yarpaqlar olmasa üzümlər yeşiklərdə əzilər.

Bu arada baba Dilarəni çağırdı.

-Dilarə, qızım, o yaxındakı meynələrdən bir ətək yarpaq qır gətir, görüm.

## ÜZÜM OĞRUSU

Dilarə yerindən qalxdı. Tələsik babasının göstərdiyi meynələrdən yarpaq qırmağa başladı. Birdən o.

-Uf...-çığırıb, barmaqlarını ağzına apardı.

Elxan və qızlar tez Dilarənin yanına qaçdılar.

-Nə oldu, nə oldu, ilan vurdu? - deyə Elxan Dilarənin barmaqlarını, əlini gözdən keçirtdi,heç bir şey görmədi. Dilarə isə ilan adını eşitcək yerindən dik atıldı:

-İlan?! Yox, əlimə tikan batdı.

Uşaqlar gülüşdülər. Dilarə incidi:

-Nəyə gülürsünüz, - dedi, - bir bax, gör nə balaca koldur, amma tikanları iynə kimidir.

Elxan əyilib Dilarənin göstərdiyi yerə baxdı və sevincək halda:

-Kola bax ha... heç belə də kol olar. Bu kol deyil, kirpidir, - dedi.

-Kirpi?! - deyə Dilarə təəccüblə soruşdu.

Elxan meynə çubuğu ilə kirpini çəkib, Dilarənin qabağına qoydu. Kirpi arxası üstə düşdüyündən əllərini, ayaqlarını və başını yığıb, top kimi yumurlandı.

-Ay aman... Gör yazıq qorxusundan necə yığıldı,- deyə Dilarə heyrətlə pıçıldadı.

Elxan kirpini o tərəf, bu tərəfə çevirdi və çox bilmiş adamlar kimi:

-Bəs necə, eşitməmisən oğru qorxacaq olar?

-Yox, - deyə Dilarə tez cavab verdi və Elxanın cavabını gözləmədən soruşdu: Bəyəm bu kirpi oğrudur ki, belə qorxur.

-Bəs yox... bu tikanlarını görürsən?..

-Görürəm...

-Hə... Elə ki, tikanlarını batırır üzüm salxımına, bütün gilələr sancılır onun tikanlarına, sonra yavaş-yavaş meynə dibi qaçıb girir yuvasına, başa düşdün?

Dilarə mat-məəttəl qalmışdı. O, bir tərəfdən kirpinin oğurluğuna təəccüblənirdi. Digər tərəfdən də Elxanın hər şeyi bildiyinə heyran qalmışdı.

Elxan isə kirpini papağının içinə qoydu və Dilarəyə:

-Nə yaxşı sən bu üzüm oğrusunu gördün... Yoxsa bütün üzümləri xarab edəcəkdi, - dedi. Elə bu zaman babanın səsi gəldi.

-Ay uşaqlar nə oldu, yarpaq qırmadınız?!

-Bu saat, bu saat babacan, - deyə Dilarə, Elxan və qonşu qızlar bir ətək yarpaq qırıb gətirdilər. Babanın qabağında yerə tökdülər.

Baba razı qaldı və gülümsünərək dedi:

-Sağ olun balalarım. Siz əsil kolxozçusunuz ki...

# DƏNİZDƏ

Gün göyün ortasına qalxdı. Torpaq od kimi yandırmağa başladı. Baba, üzüm yükü tutulmuş yeşikləri, ağacların altında üst-üstə yığdı. Uşaqlara dedi ki:

-Hazırlaşın, sizi dənizə aparım.

Dəniz sözünü eşitcək, uşaqlar hay-haray qopartdılar.

-Dəniz... dənizə... urra, - deyib çığırışdılar. Onlar bayaqdan bəri üzüm giləleri düzdükləri qutularını babanın üst-üstə qoyduğu yeşiklərin yanına yığdılar.

-Baba, ay baba, maşın gələndə bizim qutuları da aparsın ha, - deyə Dilarə qutuları babaya göstərdi. Baba başını tərpətdi:

-Yaxşı, yaxşı tapşıraram, apararlar, - dedi və yola düzəldi. Uşaqlar da babanın ətrafında atlanıb düşə-düşə dənizə yollandılar. İsti qum onların ayaqlarını yandırmasın, deyə baba uşaqları divar dibi, ağac kölgələri ilə aparırdı. Dəstə dəniz kənarına çatdı. Onlar hündür bir qayanın altında yerləşdilər. Soyundular. Əl-ələ verib, mərcanqulular ayaqlarına bata-bata qaçıb suya girdilər.

Qızlardan biri baş yaylığını açdı:

-Dilarə, ay Dilarə, gəl balıq tutaq.

Balıq adını eşitcək Dilarə ləpədöyəndə ayaqlarını suya çırpa-çırpa qıza yaxınlaşdı. Onlar yaylığın uclarından tutub suya batırır və yuxarı qaldırırdılar. Sonra, yaylığın içində çapalayan xırda balıqları tutub vedrəyə atırdılar.

Birdən Dilarə lap ayaqlarının yanında, xırda qayaların arasında, iri, ağ bir şeyin çapaladığını gördü. O, yaylığı buraxdı. Əyilib diqqətlə qayaların arasına baxdı ki, görsün ağ şey nədir. Nə gördü?!.

O, əllərini bir-birinə vurub:

-Balıq, ay aman balığa bax... gör nə boydadır, - çığırdı.

Uşaqlar özlərini Dilarənin yanına atdılar, nə qədər əlləşdilərsə, balığı sudan çıxarda bilmədilər. Balıq çırpınıb onların xırda əlindən çıxır və suya düşürdü. Səsə baba da gəldi.

-Nə hay-küy salmısınız, hanı balıq? - deyə Dilarə göstərən tərəfə baxdı.

-Bah... gör ha, heç ləpədöyəndə də bu yekəlikdə balıq olar? - Sonra uşaqlara dedi ki: - Yəqin ki, bu yazığı ləpələr vurub qayaların arasına atıb, zərər yoxdur, indi, biz ondan yaxşı balıq gülləməsi bişirib yeyərik... Lap yerinə düşdü.

Baba balığı sudan çıxardıb, mərcanqululların üstünə atdı. Balıq susuz qala bilmədiyi üçün atıldı-düşdü. Ağzını bir neçə dəfə açıb-örtdü və hərəkətsiz qaldı:

Baba balığı vedrəyə qoydu.

-Sağ olun uşaqlar, - dedi, - mən görmüşəm, tor atıb balıq tutarlar. Amma belə balıq ovuna heç söz ola bilməz! - Baba uşaqları təriflədi.

Dilarə vedrə dəstəsinin bir tərəfindən, Elxan da o biri tərəfindən tutub, özlərindən razı halda paltarlarını soyunduqları qayanın altına gəldilər.

Baba balığı sərin yerdə qoydu:

-İndi deyin görüm, kim gedib bir az çör-çöp yığıb gətirər, - deyə uşaqların üzünə baxdı.

-Mən! - birinci Elxan, sonra Dilarə və o biri uşaqlar da bir-birinin dalınca çığırışdılar.

-Yaxşı, hamınız gedin, amma tez qayıdın. Siz gələnə qədər mən də ocaq hazırlaram.

Çox çəkmədi ki, uşaqlar qayıtdılar. Onlar xeyli çör-çöp və piştaxta gətirdilər.

-Piştaxtaları hardan tapmısınız?

-Babacan, ordan, o qayıqları görürsən?

Baba başı ilə işarə etdi ki, görür.

-Ordan gətirmişik,- deyə Dilarə də təsdiq etdi.

-Bəlkə bunlar balıqçılara gərək oldu?!

-Yox elə balıqçılar özləri verdilər də...

-Çox gözəl, hə... yadıma düşdü. Elxan, o bostanlara gedə bilərsinizmi?- deyə baba əli ilə onlardan xeyli aralı, lap dənizin kənarında salınmış bostanlığı göstərdi.

-Gedərik, niyə getmirik,- deyə Elxan qulluğa hazır dayanıb, babanın tapşırığını gözlədi.

-Bax qaçın o bostanlardan bir az tərəvəz yarpağı gətirin.

-Yaxşı...- deyə uşaqlar əl-ələ verib bostana qaçdılar. Bir o qədər keçməmişdi ki, onlar ləpədöyənlə qayıtdılar. Özləri ilə xeyli yarpaq, torbada qarpız, pamidor gətirmişdilər.

-Bostançılar verdilər, dedilər ki, dəniz qırağına yeməyə bundan ləzzətli şey ola bilməz.

Baba piştaxtalardan manqal qaladı. Balığı yarpaqlara səridi ki, yanmasın və onu sarıqlı halda közərmiş odun içinə qoydu.

Qarpız kəsdi. Pamidorları, nənənin verdiyi çörəyi, şor balığı yarpaqlardan döşədiyi süfrəyə qoydu. Bir azdan balıq külləməsi də hazır oldu.

Uşaqlar süfrənin ətrafında dövrə vurub oturdular. Ləzzətlə balıq-çörək, pamidor, üzüm yedilər. Üstündən də bostançıların verdikləri qarpızı yeyib, rahatlanmaq üçün hərə bir yerdə uzandı.

Axşam üstü onlar evə yollandılar.

## AYRILIQ

Kənd, daharlıq, narın qumlar, açıq hava, dəniz, balıq ovu, üzüm bağları Dilarənin o qədər xoşuna gəldi ki, o, bir də evimizi istəyirəm deyib nənəsini, babasını darıxdırmadı. Bütün yayı babanın, nənənin, qonşu uşaqların yanında keçirtdi. Onun günləri bir-birindən şən keçdi.

İndi Dilarə, babası və nənəsi, qonşu qızları ilə görüşüb şəhərə yola düşürdü. O, maşına əyləşdi. Elxanı görmədiyindən ətrafa göz gəzdirdi.

-Hələ sürmə,- deyə şoferə göstəriş verdi. Elxangilin həyətlərinə göz gəzdirdi. Amma heç kəsi görmədi. Əlacı kəsildi.

-Sür görüm də,- dedi.

-Yaxşı,- deyə şofer maşını hərəkətə gətirdi, elə bu zaman arxadan Elxanın səsini eşitdi:

-Dilarə!!!

-Dayan, dayan,- deyə Dilarə tələsik şoferə maşını saxlamasını əmr etdi.

-Yaxşı,- deyə şofer gülümsünərək maşını saxladı.

Elxan özünü Dilarəyə yetirdi. Əlindəki iri qutunu ona uzatdı:

-Al Dilarə, sənə bağışlayıram, - dedi.

Dilarə qutunu aldı. Üsulluca qapağını açdı ki,görsün Elxan ona nə bağışlayır. Amma nə gördü!?

Bütün yayı Elxanla bərabər axtarıb tapdıqları, ayaqlarını torpaq yandıra-yandıra qaçıb tutduqları cürbəcür cücülər, rəngbərəng kəpənəklər, torpaqdan seçilməyən çəyirtgələr, yay kimi açılıb, yığılan yamyaşıl meynə qurdları, çanaqlı bağa, kərtənkələ, kərtənkələ yumurtaları, hətta Dilarənin tikan kolu bildiyi üzüm oğrusu - kirpi də qutuda idi.

Elxan Dilarənin şəhərə gedəcəyini bilmiş və səhərdən oturub qurd-quşları iynəyə keçirib, qutuya düzmüşdü ki, Dilarəyə bağışlasın. Elə buna görə də görüşə gecikmişdi.

Dilarə sevindi. Başını maşının pəncərəsindən çıxardıb Elxanın boynundan qucaqladı və öpdü.

-Çox sağ ol Elxan, - dedi.

Maşın yola düşdü. Dilarə əlini havada yellədib yoldaşları ilə bir də xudahafizləşdi və:

-Gələn yay yenə bağa gələcəyəm, - deyə çığırdı.

**KİTABIN İÇİNDƏKİLƏR**

**Alma ………………………………………………..3**

**Nənəmin ad günü ……………………………... 7**

**Yatan- duran gəlincik və Reyhan ………………11**

**Məni bu evə kim gətirdi? ……………………..13**

**Qayğıkeş pişiklər ……………………………….16**

**Qapıya gələni qovmazlar ………………………..20**

**Xoruzun neçə rəngi var?…………………….....23**

**Yaşar nə cür xarrat oldu……………………....25**

**Növbətçi Əziz………………………………......28**

**Qarpız …………………………………………….31**

**Hamı deyir mən Yaxşı qızam …………………36**

**Bu çiçəklər niyə məndən qaçırlar?! ……………39**

**Nə top tapıldı, nə də Yaşar ……………………...42**

**Kitabı niyə oxuyursan? …………………………..45**

**Ata, ona de ki, çığırmasın ……………………48**

**Nadir nə üçün darıxır ………………………....50**

**Qaçdı- tutdu ……………………………………....53**

**Çempion Kazım……………………………….....56**

**Xəbərçi tutuquşu …………………………….........59**

**Balaca artist…………………………………….....63**

**Mən də oynamaq istəyirəm ………………………71**

**Lalənin məktəbi……………………………………74**

**Yeddinci qardaş ……………………………………78**

**Didarə bağa gedir ………………………………….81**

***Зейналова Габиба Мамед кызы***

Дилара едет на дачу **(рассказы)**

***(на азербайджанском языке)***

Redaktoru ***Gülşən Həsənzadə***

Badii redaktoru ***Y.Ağayev***

Texn. redaktoru ***V. Avadeyeva***

Korrektoru ***A. Məmmədova***

Çara imzalanmış 28/XI 1959-cu il. Formatı <60x84 -3,375=6,14 ç. v.
hesab-nəşr. v. 5 8. FQ 10773. Tiraji 10000 Sifariş 512.
Qiymıəti 2 man. 15 qəp.

Uşaqgəncnəşr. Bakı. Fioletov küçəsi,
Azərbaycan SSR Mədəniyyət Nazirliyinin "Qızıl Şərq" mətbəəsi. Bakı,
Həzi Aslanov küç. 80.